RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 184 (8500) ŞƏNBƏ, 12 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev postpandemiya dövrünün hədəflərini müəyyənləşdirir

## Prezidentin yaratdığı İqtisadi Şura iqtisadiyyatın yeni strateji istiqamətlərini və çərçivəsini dəqiqləşdirəcək

**2020-ci il dünya iqtisadiyyatı üçün uğursuz il kimi tarixə düşdü. Həm qlobal pandemiya ilə mübarizə, həm də neftin qiymətinin kəskin düşməsi dünya dövlətlərini yeni çağırışlarla üz-üzə qoydu. Bu cür vəziyyətin nə qədər davam edəcəyini proqnoz etmək mümkün deyil. Yəni pandemiyanın qlobal iqtisadiyyatda yaratdığı qeyri-müəyyənlik səbəbindən dünya ölkələrində iqtisadi tənəzzül hələ davam etməkdədir. Ona görə də bu gün dövlətlərin qarşısında iki əsas çağırış var - pandemiyanın sosial-iqtisadi təsirlərinin azaldılması və milli iqtisadiyyatın postpandemiya dövründə inkişafı.**

Dünyanın bir parçası olan Azərbaycanda da dövlət bu istiqamətdə mühüm addımlar atmaqdadır. Həm pandemiyanın sosial-iqtisadi təsirlərinin azaldılması istiqamətində qərarlar qəbul edilir, həm də postpandemiya dövrünə hazırlıqla bağlı islahatlar aparılır.

### Qlobal böhran və ölkə iqtisadiyyatı qarşısında yaranan yeni çağırışlar

Dünya təcrübəsi göstərir ki, iqtisadi siyasətin ayrı-ayrı istiqamətlərinə cavabdeh olan qurumların bir platformadan koordinasiya olunması müsbət səmərəsini verir. Həyata keçirdiyi yeniliklərlə dünyada ən islahatçı Prezident kimi tanınan cənab İlham Əliyev imzaladığı fərman və sərəncamlarla postpandemiya dövründə sosial-iqtisadi sferada islahatların vahid mərkəzdən əlaqələndirilməsi sistemini yaradır.

Dövlət başçısının imzaladığı fərmanla Azərbaycan Respublikasının İqtisadi Şurasının yaradılması da bu məqsədə xidmət edən mütərəqqi addımdır.

Sənəddə qeyd edildiyi kimi, Azərbaycanda son 20 ildə aparılan genişmiqyaslı sosial-iqtisadi quruculuq prosesi, fiziki infrastrukturun müasirləşdirilməsi, insan kapitalının inkişafı hazırda əldə edilmiş sosial rifah göstəricilərinin başlıca hərəkətverici qüvvələri olub. Bu dövrdə ölkəmiz zəruri infrastruktur və institusional inkişaf göstəriciləri üzrə beynəlxalq reytinqlərdə irəliləyib, milli iqtisadiyyatın rəqabət qabiliyyəti xeyli yüksəlib. Ümumi daxili məhsulun həcmi 3 dəfədən çox artıb, vətəndaşların həyat səviyyəsi nəzərəçarpacaq dərəcədə yaxşılaşıb.

Lakin son illərdə dünya iqtisadiyyatında potensial iqtisadi artım templərinin aşağı düşməsi, qlobal maliyyə sabitliyinin kövrəkliyi xüsusilə ilin əvvəllərindən başlanan koronavirus pandemiyası və onunla əlaqədar əksər ölkələrdə sosial-iqtisadi fəallığın məhdudlaşması Azərbaycan iqtisadiyyatı qarşısında da yeni strateji çağırışları yaradıb. Yaradılmış rifah səviyyəsinin əlverişsiz qlobal mühitdə dayanıqlı saxlanılması və daha da yüksəldilməsi üçün milli iqtisadiyyatımızın beynəlxalq rəqabət qabiliyyəti gücləndirilməli, iqtisadiyyatın neft gəlirlərindən asılılığı minimuma endirilməli, ölkədə makroiqtisadi və maliyyə sabitliyi qorunmalıdır.

Bu səbəbdən də növbəti onillikdə ölkəmizdə sosial rifahın yüksəldilməsi üçün iqtisadiyyatın ikiqat artımının təmin edilməsi qarşıda duran başlıca strateji çağırışlardan biridir. Xüsusilə postpandemiya dövründə iqtisadiyyatın illik artım tempinin yüksəldilməsi üçün onun yeni mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi, bu məqsədlə daha dayanıqlı və inklüziv iqtisadi artım mənbələrinin yaradılmasına, xüsusilə özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların cəlbinə, qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyən edilməsi, qlobal dəyər zəncirinə fəal qoşulma, investisiya mühitinin radikal yaxşılaşdırılması, müasir səhiyyə və təhsil siyasəti vasitəsilə insan kapitalının keyfiyyətinin daha da yüksəldilməsi, biznesin tələblərinə uyğunlaşdırılması, mülkiyyət hüquqlarının daha effektiv qorunması və “biznesə dost” digər strateji vəzifələrin icrası təmin olunmalıdır.

Sənəddə qeyd edilir ki, milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi təmin etmək, bunun üçün iqtisadi siyasət və iqtisadi islahatlar çərçivəsini formalaşdırmaq məqsədilə ölkədə iqtisadi siyasətin yeni strateji idarəetmə çərçivəsinin yaradılması tələb olunur.

*Ardı 5-ci səh.*

## Şamaxı rayonunun Bakı-Şamaxı-Yevlax (122 km)-Şəhriyar-Kələxana avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Üç min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Bakı-Şamaxı-Yevlax (122 km)-Şəhriyar-Kələxana avtomobil yolunun tikintisi məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 3,5 milyon (üç milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 sentyabr 2020-ci il*

## Görülən tədbirlərin mərkəzində vətəndaş amili dayanır

### İlham ƏLİYEV: “Bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır”

**Ötən ilin dekabrından yayılan COVID-19 infeksiyası pandemiyaya çevrilərək bütün bəşəriyyəti təhdid etməkdədir. Ötən dövr ərzində virusun bütün ölkələrdə sürətlə yayılması, indiyədək 28 milyondan çox insanın yoluxması, 900 mindən artıq insanın vəfat etməsi xəstəliyin kifayət qədər təhlükəli olduğunu göstərir.**

### Virusla mübarizə dövlət başçısının xüsusi nəzarətindədir

Ötən aylar ərzində dünyanın demək olar ki, bütün ölkələri koronavirusla mübarizəyə kökləndi. Reallıq ondan ibarətdir ki, ilk gündən məsələyə laqeyd yanaşan, virusun təhlükəli olmadığını düşünən ölkələrdə daha ciddi fəsadlar baş verdi. İtaliya, İspaniya, Böyük Britaniya kimi dövlətlərdə baş verənlər bunu təsdiq edir. Bu ölkələrdə qısa müddət ərzində virusa yoluxanların yüz minlərlə, vəfat edənlərin isə on minlərlə olması vaxtında qabaqlayıcı tədbirlərin həyata keçirilməməsinin nəticəsi idi.

Yoluxma sayına görə ilk yerdə 6,5 milyon nəfərlə ABŞ qərar tutub. Hindistan və Braziliya kimi ölkələrdə də yoluxanların sayı milyonlarladır. Rusiyada artıq yoluxanların sayı 1 milyon nəfəri ötüb. 30-a yaxın ölkədə isə yoluxanların sayı 100 minlə 700 min nəfər arasında dəyişir.

*Ardı 4-cü səh.*





## Keçidlər də yollar kimi insanların rahatlığına xidmət edir

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bu il sentyabrın 9-da Mərdəkan-Zuğulba avtomobil yolundakı yerüstü piyada keçidinin açılışında iştirak edib. Keçid dövlət başçısının sərəncamına əsasən, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində tikilib.

Son illər sosial sahənin mühüm elementi olan yol infrastrukturunun müasirləşdirilməsi, ümumiyyətlə, ölkənin hər yerində yol təsərrüfatının yenilənməsi də dövlətin diqqət mərkəzindədir. Təsadüfi deyil ki, həmçinin avtomobil yollarında piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə hərəkətin intensiv olduğu ərazilərdə yeraltı və yerüstü piyada keçidlərinin inşasına xüsusi əhəmiyyət verilir.

Paytaxtda bu istiqamətdə genişmiqyaslı işlər görülür. Belə ki, 2018-2019-cu illərdə Bakıda və şəhərətrafı yollarda, həmçinin magistrallarda 7 yerüstü və yeraltı piyada keçidi istifadəyə verilib. 2020-ci ilin əvvəlindən indiyədək paytaxtda Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsində yeraltı, Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində və Neapol küçəsində yerüstü piyada keçidləri inşa olunub. Hazırda bu istiqamətdə işlər uğurla davam edir.

*Ardı 7-ci səh.*

## Paşinyana Ermənistan əhalisinin cəmi 17 faizi inanır

### ABŞ səfirliyinin işğalçı ölkədə keçirdiyi rəy sorğusunun nəticəsinə görə, əhali baş nazirə etibar etmir

**Ermənistanda pandemiya fonunda baş verən son hadisələr bu ölkənin sosial-iqtisadi sahəsində olduğu kimi, siyasi həyatında da problemlərin artdığından xəbər verir. Belə görünür ki, Paşinyan hakimiyyəti ilə sabiq iqtidar təmsilçiləri arasında kəskinləşən qarşıdurma ölkədə yeni xaosun formalaşmasına zəmin yaradır, ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu göstərir.**

“İravnuk” qəzeti yazır ki, Ermənistanda hakimiyyət dəyişikliyi nəticəsində hətta millət vəkili olmuş insanların belə siyasi təcrübəsi yoxdur, bu kimi böhran vəziyyətlərinə dözmürlər, emosiyalara və damğalara tabe olurlar: “Ermənistanda siyasi sistem hakimiyyət dəyişikliyindən sonra faktiki olaraq dağıldı və yalnız siyasi kapitalı olan bir nəfər, Nikol Paşinyan var. Nəticədə hökumətində və fraksiyasında heç kim ona qarşı çıxa bilmir”.

*Ardı 6-cı səh.*



## Xüsusi karantin rejiminin təhsil tələbləri

### Azərbaycanda tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti qaydaları təsdiqlənib

Azərbaycanın COVID-19 ilə mübarizədə özünəməxsus model ortaya qoyması koronavirusa yoluxma hallarının sayının azalmasında əhəmiyyətli rol oynayıb. Buna görə də ölkəmizdə normal həyata dönüş sürətlənib və virusla bağlı tətbiq olunan xeyli məhdudiyyət aradan qaldırılıb.

Pandemiya dövründə bütün dünyada ən çox narahatlığa və müzakirələrə səbəb olan məsələlərdən biri təhlükəli şəraitdə təhsil müəssisələrinin necə fəaliyyət göstərməsi ilə bağlı idi ki, hazırda respublikamızda sözügedən məsələ ilə bağlı da zəruri addımlar atılıb. Belə ki, sentyabrın 15-də təhsil müəssisələrimiz pandemiya qaydalarına uyğunlaşdırılmış formada fəaliyyətə başlayacaq.

Artıq ümumtəhsil məktəbləri üçün 2020-2021-ci dərs ilinə aid əsas və uyğunlaşdırılmış tədris planları, “Tədris planlarına dair qeydlər” Təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilib.

*Ardı 5-ci səh.*

# Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, Rusiya Uşaq Fondunun sədri, yazıçı Albert Lixanova

Hörmətli Albert Anatolyeviç.

Əlamətdar tarix - anadan olmağınızın 85 illiyi münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Siz yaşadığınız illərə, böyüməkdə olan nəslə yorulmadan qayğı göstərməyə həsr edilmiş parlaq həyat yolunuza görə haqlı olaraq fəxr edə bilərsiniz. Artıq otuz ildən çoxdur ki, Rusiya Uşaq Fondu Sizin rəhbərliyinizlə ailə institutunun və ailə dəyərlərinin möhkəmləndirilməsinə, uşaq hüquqlarının müdafiəsinə, çətin vəziyyətə düşmüş uşaqların dəstəklənməsinə yönəlmiş mühüm iş aparır. Uşaqların müdafiəsi üzrə çoxillik səmərəli ictimai fəaliyyətiniz Sizə təkcə Rusiyada deyil, bütün dünyada xeyirxah qəlbli bir insan kimi ümumi hörmət və ehtiram qazandırıb.

Azərbaycan xalqının görkəmli oğlu Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsinə, binəsib uşaqların müdafiəsi kimi nəcib işə onun sanballı töhfəsinə, onunla birgə apardığınız, Sovet Uşaq Fondunun yaradılması ilə nəticələnmiş işə Sizin qayğıkeş münasibətinizi Azərbaycanda yüksək qiymətləndirirlər.

Hörmətli Albert Anatolyeviç, yubileyiniz münasibətilə Sizi bir daha təbrik edirəm, Sizə möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 11 sentyabr 2020-ci il*

# A.A.Lixanovun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında humanitar əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Albert Anatolyeviç Lixanov “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 sentyabr 2020-ci il*




# Azərbaycan parlamentinin nümayəndə heyəti Ankarada Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib



**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlamentinin nümayəndə heyəti Türkiyəyə ilk rəsmi səfər çərçivəsində Ankaradakı Heydər Əliyev Parkında olub.**

AZƏRTAC xəbər verir ki, Ümummilli Liderin parkda ucaldılmış heykəli önünə əklil qoyulub.

# Milli Məclisin nümayəndə heyəti Mustafa Kamal Atatürkün məzarını ziyarət edib

Azərbaycan Milli Məclisinin nümayəndə heyəti sentyabrın 11-də Ankarada Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan parlamentinin Sədri Sahibə Qafarovanın adından Anıtqəbrin önünə əklil qoyulub.

Milli Məclisin Spikeri Xatirə kitabına ürək sözlərini yazıb.





# *Sahibə QAFAROVA:* “Azərbaycanla Türkiyə arasında mövcud olan birlik bizə gələcəyimizi də birgə qurmağa imkan verir”



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 10-dan Türkiyədə rəsmi səfərdədir. Bu, Milli Məclisin Sədri Sahibə Qafarovanın parlament sədri kimi ilk xarici səfəridir.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, komitə sədri Ziyafət Əsgərov, deputatlardan Sevil Mikayılova, Fazil Mustafa, Elşən Musayev, Tural Gəncəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyənin Ticarət naziri xanım Ruhsar Pekcan ilə görüşüb.

Azərbaycan parlament nümayəndə heyətini Türkiyədə salamlamaqdan məmnunluq duyduğunu deyən xanım nazir bildirib ki, 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 4,4 milyard dollar olub. Lakin bu rəqəm iki ölkənin gerçək potensialını əks etdirmir və məqsədimiz ticarət dövriyyəmizi daha da artırmaqdır.

Xanım nazir deyib ki, hədəfimiz Azərbaycanla Sərbəst Ticarət Anlaşması imzalamaqdır. Ruhsar Pekcan pandemiya səbəbindən Türkiyənin Orta Asiyaya İran üzərindən daşımalarda çətinlik yarandığını və bu səbəbdən Gürcüstan-Azərbaycan-Xəzər istiqamətinin daha da önəm qazandığını diqqətə çatdırıb.

Qadın sahibkarlığının inkişafı barədə danışan Ruhsar Pekcan bununla bağlı Türkiyədə görülən işlərdən danışıb. O, qadın kooperativlərini gücləndirmək üçün yeni bir proqram başlatdıqlarını və qadınların iş həyatında daha çox yer tutması üçün layihələr həyata keçirməyə davam etdiklərini bildirib. Qeyd edib ki, qadın güclənərsə, ailə güclənər, iqtisadiyyat güclənər.

Türkiyənin Naxçıvanla əlaqələrinə də toxunan Ruhsar Pekcan diqqətə çatdırıb ki, Naxçıvan Azərbaycanın bizə əmanətidir və Naxçıvanla ticarət əlaqələrinin inkişafına xüsusi önəm veririk. Ümumiyyətlə, Azərbaycanla işbirliyimizdən məmnunuq və daha böyük ticarət dövriyyəsinə imza atacağımıza inanırıq.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bu, onun ilk rəsmi səfəridir. “Türkiyə bizim üçün doğma ölkə olduğu üçün Azərbaycanın ən yüksək vəzifəli şəxsləri ilk səfərlərini Türkiyəyə həyata keçirirlər. Türkiyə tərəfdən də bu belədir. Biz bir millət, iki dövlətik. Bu sözləri Ulu Öndər Heydər Əliyev deyib. Düşünürəm ki, doğrudan da, bu sözlərin arxasında çox böyük həqiqət var. Çünki dilimiz, dinimiz, mədəniyyətimiz, tariximiz də birdir. Eyni zamanda bizim dilimizdə, mədəniyyətimizdə olan birlik bizə gələcəyimizi də birgə qurmağa imkan verir”, - deyə o, əlavə edib.

İki ölkə arasındakı iqtisadi münasibətlərə toxunan Milli Məclisin Sədri deyib ki, Türkiyə və Azərbaycan bu gün region üçün çox böyük işlər görür. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri buna misal ola bilər. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi türkdilli ölkələri birləşdirən bir dəmir yoludur və onu yalnız qədim İpək Yolu ilə müqayisə etmək olar. Hazırda iqtisadi münasibətlərimiz yüksək səviyyədədir. Pandemiya şəraiti olmasına baxmayaraq, bu ilin 6 ayı ərzində qarşılıqlı ticarət dövriyyəmiz 2 milyard dolları keçib.

Milli Məclisin Sədri həm Türkiyədə, həm də Azərbaycanda qadınlara verilən dəstəkdən danışaraq qeyd edib ki, hansı cəmiyyətdə qadın azaddırsa, yaxşı təhsili varsa, o cəmiyyət inkişaf edəcək.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Türkiyədə səfərdə olan Azərbaycan parlamentinin nümayəndə heyəti sentyabrın 11-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentopla görüşüb.







AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri Sahibə Qafarovanı və nümayəndə heyətinin üzvlərini salamlayan Mustafa Şentop Türkiyə və Azərbaycanın qardaş ölkələr olduğunu bildirib. Qeyd edib ki, Türkiyə və Azərbaycan əsrlərboyu dərin tarixi dostluq və qardaşlıq kökləri ilə bağlı olan iki dövlət, bir millətdir. Azərbaycanın acısı bizim acımız, Azərbaycanın sevinci bizim sevincimizdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Mustafa Şentop diqqətə çatdırıb ki, Ermənistan təkcə Azərbaycana deyil, bütün bölgəyə təhdiddir. Dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın söylədiyi kimi, biz hər zaman Azərbaycanın yanındayıq və Azərbaycana istənilən məsələdə dəstək olmağa hazırıq. Bu baxımdan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Türkiyə hər zaman Azərbaycanın yanındadır.

TBMM-in Sədri qeyd edib ki, Azərbaycan Prezidentinin Yunanıstanın Azərbaycana yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən söylədiyi sözlər Türkiyənin 83 milyonluq əhalisinin qəlbinə su səpdi. Mustafa Şentop Yunanıstanla bağlı məsələdə Türkiyəyə verdiyi dəstəyə görə Azərbaycan tərəfinə xüsusi təşəkkürünü çatdırıb.

Milli Məclisin Sədri Sahibə Qafarova səmimi görüşə görə minnətdarlıq edərək parlamentin başçısı kimi ilk olaraq Türkiyəni ziyarət etməsindən məmnunluq duyduğunu bildirib. Qeyd edib ki, ölkələrimiz arasında gözəl bir ənənə formalaşıb - yüksəkvəzifəli dövlət rəsmilərimiz vəzifələrinin icrasına başladıqdan sonra ilk rəsmi xarici səfərlərini qarşılıqlı şəkildə qardaş ölkəyə edirlər. Mən də bu gözəl ənənəyə sadiq qalaraq ilk xarici rəsmi səfərimi məhz dost ölkə Türkiyədən başladım. Bu, olduqca təqdirəlayiqdir və mən əminəm ki, iki qardaş ölkə arasında bu gözəl ənənə bundan sonra da yaşayacaq.

Sahibə Qafarova təəssüflə bildirib ki, koronavirus pandemiyası səbəbindən bu səfəri daha əvvəl həyata keçirmək mümkün olmadı. Sədr pandemiyaya qarşı aparılan çox səmərəli mübarizə ilə bağlı qardaş Türkiyəni təbrik edib.

Azərbaycan-Türkiyə münasibətlərindən danışan Milli Məclisin Sədri qeyd edib ki, dünya siyasi sistemində bunun alternativi yoxdur. Bu münasibətlərin kökü xalqlarımız arasında mövcud olan əsl qardaşlıq ruhuna söykənir. Bu gün Azərbaycan ilə Türkiyə arasında əlaqələr strateji müttəfiqlik səviyyəsindədir.

Sədr diqqətə çatdırıb ki, Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi xalqlarımız arasında münasibətlərin ruhuna uyğun olaraq qardaş parlamentlər xarakterinə sahibdir. Bu qardaşlıq parlamentlər arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqda özünü göstərir.

Parlamentlərimizdə qarşılıqlı fəaliyyət göstərən dostluq qrupları vardır. Azərbaycan tərəfdən Əhliman Əmiraslanov, Türkiyə tərəfdən isə Şamil Ayrım bu qruplara uğurla rəhbərlik edirlər. Şamil Ayrım Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinin inkişafı üçün göstərdiyi xidmətlərə görə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən “Dostluq” ordeninə layiq görülüb.

Sahibə Qafarova deyib ki, parlament rəhbərləri ilə yanaşı, dostluq qruplarımız arasında da qarşılıqlı səfərlərin və görüşlərin artırılması olduqca mühümdür. Çünki dostluq qruplarının təmaslarının intensivləşməsi ölkələr arasında əlaqələrin daha da dərinləşdirilməsinə mühüm töhfə verir.

Sədr iyulun 12-də Ermənistan tərəfindən Tovuz istiqamətində sərhəddə törədilən təxribatla bağlı Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiya - AK Parti, CHP, MHP və İYİ Partinin ortaq bəyanatla çıxışına görə Türkiyə siyasətçilərinə, siyasi partiyalarına bir daha dərin minnətdarlığını bildirib.

Milli Məclisin Sədri vurğulayıb ki, bir millət, iki dövlət olaraq tariximizdə də çox oxşarlıqlar var. Buna görə gələcəyimizi də gərək elə quraq ki, bunları qoruyub saxlayaq.

Milli Məclisin Sədri Sahibə Qafarova deyib: “Prezident İlham Əliyevin Yunanıstanın Azərbaycana yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən söylədiyi sözlər bütün Azərbaycanın mövqeyidir.

Siz də qeyd etdiyiniz kimi, Azərbaycanla Türkiyə arasında çox sıx münasibətlər var. Bu günədək iki ölkə arasında 249 sənəd imzalanıb. Bu sənədlər təhsildən tutmuş enerji layihələrinə qədər müxtəlif sahələri əhatə edir. Bakı-Tbilisi-Qars dəmir yolu, TAP, TANAP layihələri təkcə bizim ölkələr üçün deyil, bütün bölgə üçün mühüm layihələrdir və bunu birlikdə həyata keçirməyimiz bizim birliyimizdən, qardaşlığımızdan və dostluğumuzdan xəbər verir. Hesab edirəm ki, biz bu münasibətləri daha da genişləndirməliyik”.

Sonda görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan deputatları TBMM-in inzibati binasının bombalanmış hissəsi ilə tanış olublar

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Türkiyəyə ilk rəsmi səfəri çərçivəsində deputatlarımız Ankarada 2016-cı il 15 iyul dövlət çevrilişinə cəhd zamanı Türkiyə Böyük Millət Məclisinin (TBMM) inzibati binasının bombalanmış hissəsi ilə tanış olublar.

Burada deputatlara o dövrdəki hadisələr barədə geniş məlumat verilib.





# Azərbaycan ilə Misir arasında əməkdaşlıq əlaqələri müzakirə edilib

Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov sentyabrın 11-də Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahimi ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycan ilə Misirin münasibətlərinin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edərək ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə mövcud olan əməkdaşlığı yüksək qiymətləndirib. Ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli platformalarda əməkdaşlıq və qarşılıqlı dəstək məmnunluqla vurğulanıb.

Səfir Adel İbrahim Misir Ərəb Respublikasının Xarici İşlər naziri Sameh Şukrinin səmimi təbriklərini nazir Ceyhun Bayramova çatdırıb və onu ölkəsinə rəsmi səfərə dəvət edib. Tərəflər ölkələrimiz arasında qarşılıqlı səfər mübadilələrinin həyata keçirilməsi, hökumətlərarası komissiyanın fəaliyyəti, pandemiyadan sonra birbaşa uçuş reyslərinin bərpası və digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar. Həmçinin iqtisadi, ticarət, turizm sahələrində əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğu qeyd edilib.

Nazir Misir səfirinə Ermənistan-Azərbaycan münaqişəsi və onun ağır nəticələri, Ermənistanın davam edən təcavüzkar siyasəti, Ermənistan silahlı qüvvələrinin sərhəddə törətdiyi son hərbi təxribatı, işğal edilmiş Dağlıq Qarabağ və ətraf bölgələrimizdə Ermənistanın həyata keçirdiyi qeyri-qanuni fəaliyyəti, o cümlədən qanunsuz məskunlaşdırma siyasəti və bu yolla münaqişənin həllinə, eləcə də azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına geri qayıtmasına maneə törətdiyi barədə ətraflı məlumat verib. Misir Ərəb Respublikası da daxil olmaqla beynəlxalq ictimaiyyətin qəbul etdiyi qərar və qətnamələrin müddəalarına, xüsusilə də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən tam və qeyd-şərtsiz çıxarılması və məcburi köçkünlərin öz evlərinə geri dönməsinin zəruriliyi vurğulanıb.

Səfir Adel İbrahim öz növbəsində Misirin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə də fikir mübadiləsi aparılıb.

# İqtisadiyyat nazirinin təqdimatında vebinar keçirilib

**Sentyabrın 11-də "Yüksəliş" müsabiqəsinin İşçi Qrupu tərəfindən növbəti vebinar təşkil olunub.**




İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 450-dək iştirakçının qatıldığı vebinarda müsabiqənin İdarəçi Rəhbərlər heyətinin üzvü, nazir Mikayıl Cabbarov "İdarəçi rəhbər və təcrübə" mövzusunda təqdimatla çıxış edib. Nazir "Yüksəliş" layihəsinin əhəmiyyəti barədə məlumat verib və müsabiqənin intellektual səviyyəsi, idarəçilik keyfiyyətləri, bilik və bacarıqları yüksək olan rəhbər şəxslərin müəyyən edilməsində, zəngin kadr resurslarının yaradılmasında mühüm rolunu qeyd edib.

İqtisadiyyat naziri idarəçi rəhbərlər üçün tələblər, idarəçilik bacarıqlarının inkişafı üçün vacib olan amillərlə bağlı fikirlərini bölüşüb. Vebinarda həmçinin idarəçi rəhbərlərin təcrübədə qarşılaşdıqları məqamlar barədə məlumat verilib, müxtəlif qurumlarda müəyyənləşdirilmiş hədəflər, məqsədə çatmaq üçün istifadə olunan metodlar, təcrübə əsasında əldə edilmiş müsbət nəticələr diqqətə çatdırılıb. Yeni yanaşmaların tətbiqinin faydalı nəticələri, şəffaflığın təminatı üçün istifadə olunan müasir alətlər, innovativ yanaşmalara əsaslanan həllər, mövcud resursların daha səmərəli istifadəsi üçün istifadə olunan mexanizmlər, geniş və əhatəli sistemlərdə səmərəli nəticələr əldə etmək üçün peşəkar yanaşma tərzinin formalaşması, böhran zamanı idarəetmənin xüsusiyyətləri izah olunub. Vurğulanıb ki, bilik, təcrübə və komanda işinin vəhdəti ilə göstərilən fəaliyyət idarəçilərin uğur hekayələrinin və qazanılmış nailiyyətlərin əsas fəlsəfəsini təşkil edir. Zaman keçdikcə əmək bazarı üçün yeni tələblər yaranır və idarəçilər üçün yeni obrazlar formalaşır. İdarəçi rəhbər olmağın formulunu isə hər bir idarəçi özü müəyyən edir. Çünki hər kəsin iş fəaliyyətinə fərdi yanaşması və prinsipləri var. Bu formul hər bir idarəçinin öz uğur hekayəsinin fəlsəfəsi əsasında formalaşır.

Vebinar iştirakçılarla qarşılıqlı müzakirə formatında aparılıb, dinləyicilərin sualları cavablandırılıb. Müsabiqənin İşçi Qrupu davamlı olaraq idarəçi rəhbərlərin təqdimatında vebinarların təşkilini nəzərdə tutur.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib



Sentyabrın 11-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin payız sessiyasında ilk iclası keçirilib. Komitənin sədri Əli Hüseynli yeni sessiyanın başlanması münasibətilə həmkarlarını təbrik edib, onlara qarşıdakı payız sessiyasında uğurlar arzulayıb.

AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində komitədə görülən işlərə qısa nəzər salınıb. Əli Hüseynli vurğulayıb ki, ötən dövrdə komitə gərgin işləyib, keçirilən iclaslarda 127 məsələ müzakirə olunub ki, onlardan da 117-si Milli Məclisin plenar iclasına tövsiyə edilib və əksəriyyəti qəbul olunub. Hesabat məqbul hesab edilib.

Sonra komitənin 2020-ci ilin payız sessiyası üçün qanunvericilik işləri planı müzakirə olunub. Bildirilib ki, qarşıdakı sessiyada iş planına Azərbaycan Prezidentinin, Respublika Ali Məhkəməsinin, Baş Prokurorun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri, Azərbaycan Respublikasının dövlət büdcəsi zərfinə daxil olan sənədlər, digər qanunlara əlavə və dəyişikliklər edilməsi barədə qanun layihələrinin müzakirəsi daxil edilib. Komitə üzvləri Qüdrət Həsənquliyev, Azay Quliyev, Erkin Qədirli, Nizami Səfərov, Bəhruz Məhərrəmov müzakirə ediləcək sənədlərlə ilə bağlı fikirlərini açıqlayıb, təkliflər bildiriblər. İş planı təsdiq olunub.

Sonra iclasda birinci oxunuşda "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Komitə sədri vurğulayıb ki, bu medalla həqiqi hərbi xidmət keçən və xidməti vəzifələrini nümunəvi yerinə yetirən zabit və gizirlər, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular, ehtiyatda olan və istefaya buraxılmış hərbçilər, həmin orqanda səmərəli fəaliyyət göstərən mülki işçilər, habelə bu sahədə xüsusi xidmətləri olan digər şəxslər təltif ediləcəklər. İclasda iştirak edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini, general-mayor Zaur Abdullayev yeni təsis edilən medalın bu sahədə fəaliyyət göstərən insanların ruh yüksəkliyinin artırılmasında rolu olacağını vurğulayıb, təmsil etdiyi qurum adından minnətdarlığını ifadə edib.

Komitədə Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanun layihəsinə birinci oxunuşda baxılıb. Bildirilib ki, sənədə texniki xarakterli dəyişiklik təklif edilib.

Sonra iclasda Əmək Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "İşsizlikdən sığorta haqqında" və "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirə edilib. Komitə sədri vurğulayıb ki, sözügedən qanunlarda nəzərdə tutulan səlahiyyətləri publik hüquqi şəxs statusunda Dövlət Məşğulluq Agentliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Tibbi-Ekspertiza və Reabilitasiya Agentliyi, həmçinin Sosial Xidmətlər Agentliyi həyata keçirəcək.

Əli Hüseynli Əmək Məcəlləsinə, Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və "Uşaq hüquqları haqqında" Qanuna təklif olunan dəyişiklikləri birinci oxunuşda təqdim edərkən bildirib ki, sənədlər "Gənclər siyasəti haqqında" Qanuna dəyişiklik edilməsi barədə 2019-cu il 5 mart tarixli qanun layihəsinə uyğunlaşdırma xarakteri daşıyır. 18 yaşına çatmamış şəxslərin mənəvi-əxlaqi tərbiyəsinin və sağlam gəncliyin formalaşması istiqamətində kompleks tədbirlər keçirilməsini, uşaqlara tütün məmulatları və alkoqollu içkilərlə bərabər energetik içkilərin satışının, onların idman-mərc oyunlarında iştirakının qadağan olunması sahəsində məhdudiyyətləri ehtiva edir.

Müzakirəyə birinci oxunuşda təqdim edilən Mülki Prosessual, Cinayət, Miqrasiya, İnzibati Xətalar məcəllələrinə, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlara təklif edilən dəyişikliklərin isə "Vergi Məcəlləsinə dəyişiklik edilməsi barədə" 2018-ci il 30 noyabr tarixli qanun layihəsinə uyğunlaşdırma məqsədilə hazırlandığı bildirilib.

Sonra Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə birinci oxunuşda baxılıb. Qeyd olunub ki, sənədlər "Təhsil haqqında" qanuna dəyişiklik edilməsi barədə 2018-ci il 12 iyun tarixli və "Ümumi təhsil haqqında" 2019-cu il 29 mart tarixli qanunlara uyğunlaşdırma məqsədilə hazırlanıb. Ümumi təhsil, peşə təhsili, məktəbəqədər təhsil, sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili ilə bağlı normaları, qanunlarda edilən termin və ifadə dəyişikliklərini nəzərdə tutur.

Sonra Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə (birinci oxunuş) danışarkən bildirib ki, layihə "Ümumi təhsil haqqında" qanunun icrası ilə əlaqədar hazırlanıb. Qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə əmək müqaviləsi bağlanılmasına görə vəzifəli şəxslər 3000 manat məbləğində cərimə ediləcəklər.

İclasın sonunda müzakirə olunan bütün qanun layihələrinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

# Azərbaycandan keçməklə Çindən Avropa istiqamətində yeni yük qatarı marşrutu istifadəyə verilib

Azərbaycandan keçməklə Çindən Avropa istiqamətində yeni yük qatarı marşrutu istifadəyə verilib.






AZƏRTAC xəbər verir ki, sentyabrın 10-da Çinin şərqindəki Cıcian vilayətinin Cinhua şəhərindən bu marşrut üzrə yola çıxan ilk yük qatarının 15-18 gün sonra Bakıya çatması planlaşdırılıb. Sənaye avadanlığı və məişət əşyaları da daxil olmaqla müxtəlif növ mallar yüklənmiş yüz konteynerdən ibarət qatar Qazaxıstanın Xəzər dənizi sahilindəki Aktau limanına çatdıqdan sonra oradan bərə ilə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına yola salınacaq.

Cıcian vilayətindəki beynəlxalq nəqliyyat şirkətinin baş direktoru Çian Yon bildirib ki, bu marşrutla yüklərin daşınmasına ənənəvi quru yolu - dəniz nəqliyyatı ilə müqayisədə daha az vaxta reallaşacaq. İlkin mərhələdə marşrut üzrə ayda 1-2 qatarın yola salınması nəzərdə tutulsa da, gələcəkdə qatarların sayı artırılacaq. O, yeni marşrutun rəhbərlik etdiyi şirkətin işlərini xeyli asanlaşdıracağını bildirib.

Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə veriləndən sonra Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yüklərin Çindən Avropaya və əks istiqamətdə daşınması həyata keçirilir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çinin meqalayihəsi olan "Bir kəmər, bir yol" təşəbbüsünün icrasına da əhəmiyyətli töhfələr verir.

# Vətəndaş maraqlarına xidmət edən mütərəqqi sosial müdafiə sistemi

## İlham ƏLİYEV: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

### Məşğulluq sosial siyasətin spesifik istiqamətidir

Respublikamız qonşu ölkələrdən fərqli olaraq əlverişli demoqrafik şəraitə malikdir. Son 20 ildə respublika əhalisi artmış və 10 milyon nəfəri ötmüşdür. Belə demoqrafik inkişaf əmək qabiliyyətli insanların sayının artmasını şərtləndirir, lakin məşğulluqla bağlı əlavə problemlər yaradır. Bu baxımdan məşğulluq, yeni iş yerlərinin yaradılması ölkəmiz üçün daimi prosesdir. Bu problemin həlli ölkəmizin dinamik inkişafının strateji amili kimi qiymətləndirilir və hökumətə bu istiqamətdə tapşırıqlar verir. Eynu zamanda bu əmək ehtiyatları artmayan ölkələrdən fərqli olaraq yeni yanaşmalar tələb edir.

Ötən 17 ildə Azərbaycanda həyata keçirilən dövlət proqramlarının nəticəsi olaraq əhalinin məşğulluğunun təmin edilməsi, iş dalınca xarici ölkələrə üz tutmasının qarşısının alınması istiqamətində böyük uğurlar əldə olunub. Xüsusən regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən tədbirlərin, bununla bağlı dövlət dəstəyinin istiqamətlərinin müəyyən edildiyi proqramların təsdiqi ölkəmizin inkişafında yeni bir mərhələnin başlanğıcı olmuş və onun icrası nəticəsində regionlarda çoxsaylı yeni iş yerləri yaradılmışdır. Beş ildən bir qəbul olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ölkənin iqtisadi inkişafının mühüm təkanvericisi amili kimi vətəndaşların sosial rifahının yüksəldilməsində müstəsna rol oynamışdır. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin nəticəsi kimi regionlarda tarazlı inkişafla yanaşı, sosial məsələlər də yoluna qoyulmuş, əhalinin məşğulluğu və real gəlirləri artmış, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Xüsusilə qeyd etmək istərdim ki, 2003-cü ilin prezident seçkiləri ərəfəsində cənab İlham Əliyevin 600 min yeni iş yerinin yaradılacağı barədə vədi də sistemli şəkildə, ardıcıl olaraq, ilbəil əhalinin məşğuliyyətinin təmin edilməsinə hesablanmışdı və bu vəzifə də uğurla həll edildi.

Bu gün Azərbaycanda yaradılan yeni iş yerlərinin sayı daha böyük rəqəmlərlə ifadə olunur. Təkcə cari ilin birinci yarısında ölkədə 84,8 min yeni iş yerlərinin açılması da təsdiq edir ki, yeni iş yerlərinin yaradılması ölkəmiz üçün daimi prosesdir. İşsizlik isə təxminən 5 faiz səviyyəsindədir. Ümumilikdə isə bu ilin avqust ayına olan məlumatlara əsasən, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 230 min nəfərdir. Onlardan 4 milyon 881,5 min nəfərini məşğul əhali təşkil edir.

Respublikanın keyfiyyətli iqtisadi inkişafını, real sektorun quruluşunun şaxələndirilməsini təmin etmək müntəzəm olaraq yeni, yüksək elm və texnoloji tutumlu istehsal sahələrinin yaradılmasını zəruri edir. Lakin rəqəmsal iqtisadiyyatın sürətli inkişafı bir tərəfdən iş yerlərini ixtisar etməklə müşayiət edilirsə, digər tərəfdən artan iqtisadi və sosial tərəqqi əlavə işçi qüvvəsinə ehtiyac hiss edir. Bu baxımdan müasir elmi-texniki inqilabın yaratdığı bu proseslər daim diqqət mərkəzində olmalı, müvafiq qurumlar investisiya siyasətinin formalaşması, prosesində məşğulluq amilini nəzərə almalı, mütərəqqi əmək tutumlu layihələrə üstünlük verməlidirlər. Dövlət başçısı məşğulluq problemlərindən danışarkən işçilərin ixtisarı məsələsinə çox həssaslıqla yanaşılmasını vacib sayır. Təəssüf ki, bir sıra hallarda bu həssas məsələyə lazımi diqqət verilmir.

Bir məsələni də unutmalı deyilik ki, hazırda bütün bəşəriyyət dördüncü sənaye inqilabı dövrünə qədəm qoyur. Bu dövr yuxarıda qeyd edildiyi kimi, mühüm texniki yenilikləri ilə bərabər həm də bir sıra sosial çətinlikləri də ehtiva edir ki, bunlardan ən mühümü iş yerlərinin ixtisara salınmasıdır. Ona görə belə bir mərhələdə xüsusən sahibkarlar özlərinin sosial məsuliyyətini dərk etməli, məşğulluq məsələlərinə, baş verə biləcək ixtisarlara diqqətlə yanaşmalı, qanunvericiliyə riayət edilməsini əsas tutmalıdırlar.

Azərbaycan dövləti tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlb edilməsinə, məşğulluğunun təmin olunmasına xüsusi diqqət yetirilir.

Bu baxımdan cəmiyyətimiz üçün nisbətən yeni hesab edilən Özünüməşğulluq proqramı barədə qısaca bəhs etmək istərdim. Prezident İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 aprel tarixli sərəncamı ilə həyata keçirilən Özünüməşğulluq proqramı dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmaqla işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin kiçik və orta sahibkarlığın inkişafına xidmət edir.

Sosial sahədə önəmli layihələrdən olan Özünüməşğulluq proqramı məhz maddi çətinliyi olan ailələrin özlərinə yaxşı dolanışıq şəraiti yaratmağa imkan verir. Dövlət, yerli icra orqanları və özəl qurumların bu istiqamətdə layihələr həyata keçirmələri qarşıya məqsəd kimi qoyulub. Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə.

Qeyri-neft sektorunun aparıcı sahəsi olan kənd təsərrüfatında özünüməşğulluğun inkişafı üçün xüsusilə geniş imkanlar var. Çünki bu sahə çoxşaxəlidir. Kənd yerlərində insanlar ailələri ilə birlikdə heyvandarlıqla, quşçuluqla, arıçılıqla, bağçılıqla, tərəvəzçiliklə məşğul olurlar. Dövlət də onlara maddi dəstək verir. Başqa sözlə, özünüməşğulluğa diqqətin artırılması belə insanlara öz fəaliyyətlərini genişləndirmək üçün münasib şərait yaradır. Elə buna görə də Heydər Əliyev Fondu bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə böyük dəstək verib.

"Sosial bağlar" layihəsi çərçivəsində sosial cəhətdən həssas qruplar üçün meyvə bağlarının salınması, tərəvəz və bostan məhsulları istehsalı üzrə ailə təsərrüfatlarının, arıçılıq təsərrüfatlarının yaradılması ilə bağlı mühüm işlər görülüb. Bütövlükdə, aztəminatlı ailələrin özünüməşğulluğunun təmin olunmasına və gəlirlərini artırmalarına imkan verən bu layihə belə ailələrin ünvanlı dövlət sosial yardımı proqramından asılılığının aradan qaldırılmasına və kiçik sahibkarlığa çıxış imkanlarına yiyələnmələrinə şərait yaradır. Eyni zamanda layihə üzrə yeni bağçılıq sahələrinin yaradılması qeyri-neft sektorunun mühüm sahəsi olan kənd təsərrüfatının inkişafına əlavə dəstəkdir.

Özünüməşğulluq proqramına dəstək məqsədilə Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə əməkdaşlıq da cari il üzrə davam etdiriləcək. Belə ki, 2020-ci ildə daha 250 ailə üçün bağçılıq təsərrüfatlarının yaradılması nəzərdə tutulub.

Cari il ərzində 12 min işsiz şəxsin proqrama cəlb edilməsi planlaşdırılır. Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 4500-dən çox vətəndaş bu proqrama cəlb edilib.

Azərbaycanda özünüməşğulluğu inkişaf etdirmək üçün hərtərəfli şərait və imkan var. Artıq yerli banklar da bu proqramın həyata keçirilməsinə fəal dəstək verməyə başlayıblar. Belə ki, proqramın icrasına dəstək işlərinə ölkədə fəaliyyət göstərən 21 bank qoşulub. Prezident İlham Əliyev "Şadam ki, Özünüməşğulluq proqramına bizim banklar da qoşuldu. Bu, çox müsbət haldır. Biz bu proqrama Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə başlamışdıq. İndi həm Dünya Bankı qoşuldu - 100 milyon dollar həcmində, eyni zamanda, bizim banklar qoşuldular" deyə - qeyd edib.

Onu da qeyd edim ki, 2020-ci ilin yazında Milli Məclisin növbədənkənar sessiyasının iclasında "Məşğulluq haqqında" qanunun 14 maddəsinə edilən dəyişikliklərdə məşğulluğun əlçatanlığının təmin edilməsi, peşə hazırlığı, ictimai işlərə cəlb olunanların işsiz vətəndaşların daha geniş təbəqəsini əhatə etməsi və digər məqamlar öz əksini tapdı.

### Həyat səviyyəsi göstəricilərinin yüksəldilməsində yeni keyfiyyət mərhələsi

2018-ci ilin prezident seçkilərindəki qələbədən sonra Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident ciddi islahatların aparılacağını bəyan etmişdi. Nitqində sosial siyasətin daim diqqət mərkəzində olduğunu deyən Prezident növbəti illərdə çox ciddi islahatların aparılacağını və bütün bunların vətəndaşlarımızın yaşayış səviyyəsini daha da yaxşılaşdıracağını bəyan edərək dedi: "Son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib, 640-dan çox xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb. Yəni sosial siyasət daim diqqət mərkəzindədir. Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır".

2018-ci ildə Prezident İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatlar iqtisadiyyatda şəffaflığın səviyyəsini artırdı, iqtisadi artımın yeni mənbələrinin tapılmasına imkan yaratdı, qeyri-neft sektorunun sürətli inkişafını təmin etdi. Təbii ki, bütün bu nəticələr özünü həm də dövlət büdcəsinin gəlirlərinin artımında, infilyasiyanın həcminin kiçik olmasında, ixracın həcminin artımında və Azərbaycanın strateji valyuta ehtiyatlarının həcminin artmasında göstərdi. 2018-ci ildə qəbul olunmuş 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və 2019-cu ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına cənab İlham Əliyevin sərəncamları ilə iki dəfə geniş sosial paket elan edildi.

A) 2019-cu ildən başlanan sosial islahatlar 4,2 milyondan artıq vətəndaşı əhatə etdi. Ötən il həyata keçirilən sosial islahatlar öz miqyası və vətəndaşların maddi rifahının yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. 2019-cu ilin fevral ayında İlham Əliyev təxminən 3 milyon vətəndaşı əhatə edən bir sosial paketi təsdiqlədi. Bu paketdə minimum əməkhaqqının, əmək pensiyalarının minimum məbləğinin, sosial müavinətlərin, tələbə, magistr və doktorantlara verilən təqaüdlərin, məcburi köçkünlərə verilən müavinətlərin artırılması, problemli kreditlərə son qoyulması, yeni inşa olunmuş binalardakı mənzillərin sənədləşdirilməsi kimi vətəndaş məmnunluğuna yol açan məsələlər öz əksini tapdı.

Beləliklə, iqtisadi sahədə əldə edilmiş mötəbər uğurların sosial sferaya transformasiyası dövlət başçısının bəyan etdiyi sosial iqtisadi kursun başlıca prinsipi olmaqla, ötən ilin əvvəlindən etibarən ölkə vətəndaşlarının sosial təminatını əhəmiyyətli dərəcədə artırdı. Həmin vaxt keçirdiyi müşavirədə Prezident İlham Əliyev vətəndaşların sosial rifahının yüksəldilməsi ilə bağlı addımların bundan sonra da atılacağını bəyan etdi. 2019-cu ilin iyun ayının 18-də isə dövlət başçısı imzaladığı 17 sərəncamla əhalinin müdafiəsini gücləndirmək məqsədilə növbəti sosial paketi təsdiq etdi. Beləliklə, sosial sahədə bu ilin əvvəlində atılan inqilabi addımların yeni mərhələsinə start verildi.

Qeyd edək ki, birinci paket 3 milyon vətəndaşı əhatə etdi. Bu sosial islahat paketi tam şəkildə icra olundu və həm pensiyaçılarımızın, həm də işləyən vətəndaşlarımızın əməkhaqları artırıldı. Minimum əməkhaqqının məbləği martın 1-dən 50 manat (38,4 faiz) artırılaraq 130 manatdan 180 manata çatdırıldı. Əmək pensiyasının minimum məbləği isə 160 manat məbləğində müəyyən olundu.

İkinci sosial paketin icrası nəticəsində isə sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqı 250 manata çatdırıldı, həmçinin oktyabr ayından əmək pensiyasının minimum məbləği 200 manat təşkil etdi. Ümumilikdə isə iki sosial paketin 4,2 milyon vətəndaşı əhatə etməsi göstərdi ki, ölkədə həyata keçirilən siyasət məhz insan amilinə xidmət edir. Minimum əməkhaqqının, əmək pensiyalarının minimum məbləğinin, sosial müavinətlərin artırılması həm vətəndaş məmnunluğuna, həm də sosial rifahın yüksəldilməsinə xidmət edən addımlar kimi ictimaiyyətin dərin rəğbətinə səbəb oldu.

Bu ilin əvvəlindən isə pensiyaların indeksasiyası ilə bağlı dövlət başçısının qəbul etdiyi qərara uyğun olaraq 1,2 milyon pensiyaçının pensiyaları 16,6 faiz artırılıb. Bu ilin ötən dövründə orta pensiya ötən ilin müvafiq dövrü ilə müqayisədə 27 faiz artaraq 300 manata yaxınlaşıb. Hazırda Azərbaycan minimum pensiyanın məbləğinə görə alıcılıq qabiliyyəti üzrə MDB-də birinci, orta pensiyanın alıcılıq qabiliyyətinə görə isə ikinci yeri tutur.

Bununla belə Prezident İlham Əliyev bildirmişdir ki, bu artım böyük olsa da, bizi qane edə bilməz, maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq.

Bütün bunlarla yanaşı, çoxmənzilli binanın sənədləşməsindəki problemlərə son qoyulması, fiziki şəxslərin problemli kreditlərinin həlli ötən ilin ən mühüm hadisələri kimi sosial siyasətin mütərəqqi nümunələridir. Çünki bütün hallarda vətəndaşı narazı salan və narahat edən problemlər həll olunmalıdır.

B) Sosial xidmətlərə yeni nəfəs verən DOST. Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədilə yaradılan DOST layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsünün nəticəsidir. Agentliyin missiyası Azərbaycan əhalisinin dövlət tərəfindən təklif edilən əmək və sosial müdafiə xidmətlərinə Xidmət mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir. Layihə əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyır.

DOST xidmətlərinin fəaliyyətə başlaması sosial xidmətlərlə bağlı dövlət orqanlarına müraciət zamanı həm vaxt itkisinin qarşısının alınması, həm də vətəndaşların bu səbəblərdən keçirə biləcəyi əsəb və stresə son qoyulması baxımından mühüm hadisədir. Bütün bunlarla yanaşı, DOST xidmətinin həm cəmiyyətin ümumi mədəni, həm dövlət-vətəndaş münasibətlərinin səviyyəsinin yüksəlməsində, həm də korrupsiyaya ciddi zərbənin vurulmasında böyük rolu var.

Respublikada bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq. Onlarda da 130-dan çox xidmət göstəriləcəkdir.

### Prezidentin vətəndaşlarla görüşləri sosial siyasətin təkmilləşməsi üçün yeni imkanlar açır

Cəmiyyətdə sosial ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyil. Sosial ədalət Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının təbiətinə, ruhuna uyğundur. Ta qədimdən Azərbaycan xalqı ədalətə tərəfdar olub, ədaləti müdafiə edib. Sosial ədalətlilik prinsipi bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə daha inkişaf etmiş formada özünü göstərir. Ədalətlilik ölkənin sosial-iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycan dövlətinin milli sərvətlərdən əldə olunan gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırılmasıdır.

Dövlət başçısı dəfələrlə bəyan etmişdir ki, Azərbaycan hökuməti sosialyönümlü bazar iqtisadiyyatının qurulmasında məqsəd və vəzifələri, hədəfləri dəqiq müəyyənləşdirməli, əsaslandırılmış strateji proqramlardan istifadə etməli, sosial tərəqqini, keyfiyyəti, inkişafı xarakterizə edən göstəricilərin daim yaxşılaşmasını özünün vacib vəzifələri kimi diqqət mərkəzində saxlamalıdır. Qlobal maliyyə böhranı, neftin qiymətinin aşağı düşdüyü dövrdə Azərbaycan dövləti strateji proqramların, layihələrin heç birini dayandırmadı. Büdcə-maliyyə resurslarının bölüşdürülməsində müəyyən dəyişikliklər etdi, inflyasiya risklərinin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər gördü.

Azərbaycanda həyata keçirilən sosial siyasətdən danışarkən bir məsələni də qeyd etməliyik ki, bu siyasətin ayrı-ayrı istiqamətləri məhz Prezident İlham Əliyevin ölkə vətəndaşları ilə görüşləri zamanı formalaşır. Dövlət başçısının fəaliyyətinin ən mühüm tərəflərindən biri müxtəlif tədbirlər və regionlara səfərlər zamanı vətəndaşlarla təmaslara, söhbətlərə daim vaxt ayırması, belə görüşləri fəaliyyətinin mühüm istiqamətlərindən birinə çevirməsidir. Bu görüşlər sosial siyasətin daha da təkmilləşməsi üçün yeni imkanlar açır. Ən əsası isə odur ki, belə görüşlər ictimai nəzarətin ən optimal nümunəsidir.

Bütün bunların nəticəsi olaraq Prezident İlham Əliyev mövcud gerçəklikləri operativ və obyektiv şəkildə qiymətləndirərək cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul edir, insanları, cəmiyyəti narahat edən problemlər zamanında öz həllini tapır. Respublikamızda sosial siyasətdə mütəmadi olaraq baş verən keyfiyyət dəyişiklikləri də bu görüşlərin məntiqi nəticəsidir. Bu onu göstərir ki, vətəndaşların rifahı ilə bağlı qəbul edilən qərarların təməlində insanlarla görüşlərdə qaldırılan məsələlər xüsusi yer tutur. Çünki cəmiyyətin tərəqqisi ilə yanaşı, sosial həmrəyliyini təmin edən əsas şərtlərdən biri vətəndaşı düşündürən problemlərin vaxtında həll edilməsi, hər bir insanın qayğısına çevik və ədalətli münasibətin ortaya qoyulmasıdır. Əlalxüsus söhbət sosial dövlətdən, sosial cəmiyyətdən gedirsə, burada vətəndaşı narahat edən məsələlərə daha diqqətlə yanaşılması olduqca vacibdir. Çünki məhz bu kimi məsələlərin kökündə insanların dövlət orqanlarına inamının və etimadının formalaşması dayanır.

*(Ardı var)*

***Ziyad SƏMƏDZADƏ,***
***AMEA-nın həqiqi üzvü,***
***Milli Məclisin deputatı***

***(Əvvəli qəzetin 11 sentyabr tarixli nömrəsində)***

---

**Yeni dərs ili qarşısında**

# Tərtərdə vətənpərvər nəsil yetişir

Azərbaycan Prezidenti İlham Əliyevin cəbhə bölgələrinə davamlı qayğısı Tərtər rayonunun son illərdəki dinamik sosial-iqtisadi inkişafında özünü qabarıq şəkildə göstərir. Vətənpərvərlik və fəal vətəndaş mövqeyindən məqsədyönlü şəkildə həyata keçirilən tikinti, abadlıq, quruculuq işləri rayon mərkəzinin, eyni zamanda, kəndlərin simasını əsaslı şəkildə dəyişdirmiş, bölgəni füsunkar bir diyara çevirmişdir.

Cəbhə bölgəsi olaraq Tərtərin ən böyük uğuru Qarabağ müharibəsinin hələ bitmədiyi bir zamanda əsl vətənpərvər, yüksək intellektual səviyyəyə malik, doğma torpağının hər qarışını canından artıq sevən müasir dünyagörüşlü yeni nəsil yetişdirmək yolunda qazandığı qürurverici nailiyyətlərdir. Təbii ki, bu sahədə Tərtər təhsilinin üzərinə böyük məsuliyyət düşür.

Tərtər rayonu ərazisində atəşkəs rejimi demək olar ki, hər gün pozulur. Lakin mərmilərin, güllələrin səsləri bölgədəki həyat ritmini pozmaq gücündə deyildir. Azərbaycan əsgərinin düşmən təxribatlarını anındaca susdurmaq, zərərsizləşdirmək, qarşı tərəfin ölümsaçan atəş nöqtələrini dərhal məhv etmək qüdrəti bölgə əhalisində yüksək əhvali-ruhiyyəni şərtləndirir, böyük qələbənin tezliklə reallaşacağına olan inamı artırır.

Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, həmişə olduğu kimi, yeni dərs ilinin başlanması gündəmə öz qayğılarını gətirir. Rayonun təhsil müəssisələrində müxtəlif həcmli təmir işləri aparılmış, səliqə-sahman yaradılmışdır. Rayon təhsil şöbəsinə rəhbərliyin gənc və bacarıqlı kadr hesabına möhkəmləndirilməsinin məntiqi nəticəsi olaraq bu sahədə aşkarlıq, şəffaflıq təmin edilmiş, narazılıq doğuran neqativ hallar aradan qaldırılmışdır. Tərtər Rayon Təhsil Şöbəsinin müdiri Yaşar Məhərrəmov söhbət zamanı dedi ki, əsas hədəf ölkə Prezidenti İlham Əliyevin milli təhsilin qarşısında qoyduğu məsul vəzifəni şərəflə reallaşdırmaqdır. Müasir dünyagörüşlü, intellektual, vətənpərvər ruhlu yeniyetmə və gənclərin həyata hazırlanması təhsil siyasətinin ana xəttidir. Çünki insanı yetişdirən, cilalayan, sosial qayğı ilə əhatə edən, onun verdiyi bəhrələrə nail olan məhz təhsildir. Bu gün həyata keçirilən tədbirlər sayəsində həm infrastruktur yenilənir, həm də kadr potensialı müasir dünyanın çağırışlarına uyğun tərzdə formalaşdırılır.

Öyrəndik ki, Tərtərdə 47 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Şagirdlərin təlim-tərbiyəsi ilə 1300 müəllim məşğul olur. Rayonda yeni dərs ilinin başlanması ilə əlaqədar bütün zəruri tədbirlər görülmüşdür. Artıq bütün dərsliklər gətirilmişdir. Birinci siniflərə şagird qəbulu elektron qaydada davam etdirilir. 15 sentyabrda ibtidai siniflərdə yeni dərs ilinə start veriləcəkdir.

Bu il abituriyentlərin ali və orta ixtisas məktəblərinə qəbulu sahəsində qazanılan nəticə də qənaətbəxşdir. Ən yüksək nəticəni isə 630 balla Tərtər şəhər 6 saylı məktəbin məzunu Nülufər Hüseynzadə qazanmışdır.

Dövlətin cəbhə bölgələrinə göstərdiyi qayğıdan Tərtər təhsilinə də yetərincə pay düşür. Bunun sayəsində rayon təhsilinin maddi-texniki bazası ildən-ilə möhkəmlənir. Yaxın günlərdə Xoruzlu kənd orta məktəbinin tikintisinə başlanılacaqdır. Soyulan, İsmayılbəyli, Azadqaraqoyunlu kənd, şəhər 5 saylı məktəblər üçün yeni binaların tikintisi nəzərdə tutulur. Bəyimsarov kənd tam orta məktəbi isə tezliklə əsaslı təmir olunacaqdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

---

# Ucqar dağ rayonu olan Yardımlıda yeni məktəb binalarının tikintisi geniş vüsət alıb

Yeni dərs ilinə hazırlıq çərçivəsində ümumtəhsil müəssisələrinin tikintisi və təmiri davam etdirilir. Bu proses ölkəmizin bütün bölgələrini əhatə edir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramlarında da məktəb tikintisi əsas yerlərdən birini tutur. Ucqar dağ rayonu olan Yardımlıda da yeni məktəb binaları tikilir, təhsilin maddi-texniki bazası gücləndirilir.



AZƏRTAC xəbər verir ki, son illər Yardımlı rayonunda yeni məktəb binalarının tikintisi və modul tipli məktəblərin quraşdırılması geniş vüsət alıb. Bu il Peştəsər kənd ümumi və Çanaxbulaq kənd tam orta məktəbləri üçün modul tipli binalar quraşdırılıb. Qaraqaya kəndində 120 şagird yerlik yeni məktəb binası yaxın günlərdə şagirdlərin istifadəsinə veriləcək. Şəhər 4 saylı tam orta məktəb üçün tikilən yeni bina tədrisin təşkilində yaranan çətinlikləri də aradan qaldıracaq.





---

# Görülən tədbirlərin mərkəzində vətəndaş amili dayanır

## İlham ƏLİYEV: "Bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır"

*Əvvəli 1-ci səh.*

Görünən odur ki, virusa yoluxma sayı kifayət qədər təhlükəli həddədir. Ən maraqlı məqamlardan biri də odur ki, Ermənistan hər 100 min nəfərə düşən koronaviruslu xəstələrin sayına görə bütün Avropanın lideridir.

Vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlərin nəticəsində virusun Azərbaycanda təhlükəli səviyyəyə çatmasına, daha ciddi fəsadlara yol açmasına imkan verilmədi. Xüsusilə qeyd etməliyik ki, Prezident İlham Əliyev ilk vaxtdan koronavirusla mübarizə tədbirlərinin həyata keçirilməsini xüsusi nəzarətə götürdü. Odur ki, ilin əvvəllərindən ölkədə həyata keçirilən siyasət, Prezident İlham Əliyevin bu yöndə verdiyi qərarlar, fərman və sərəncamlar birinci növbədə vətəndaşların sağlamlığının təmin olunmasına istiqamətlənib. Dövlət başçısı dəfələrlə bildirib ki, bu dövrdə həyata keçirilən tədbirlərin başlıca məqsədi vətəndaşların sağlamlığıdır. *"Bundan sonra da insanların sağlamlığının qorunması üçün bütün lazımi tədbirlər görüləcək. Mən bir daha qeyd etmək istəyirəm, - bunu dəfələrlə demişəm və Azərbaycan xalqı mövqeyimizi bilir, - bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır",* - deyə Prezident İlham Əliyev bildirib.

Azərbaycan ictimaiyyəti ilk gündən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın problemə həssas və çevik münasibətlərinin şahidi oldu. Bütün bunların nəticəsidir ki, vətəndaşların sağlamlığının təmin edilməsi istiqamətində olduqca səmərəli tədbirlər həyata keçirildi. Bütövlükdə, fevralın sonundan başlayaraq koronavirus pandemiyası ilə mabarizə sayəsində ardıcıl tədbirlərin həyata keçirilməsi, səmərəli maarifləndirmə, müvafiq tibbi infrastrukturun yaradılması, profilaktika və müalicə məsələlərinin keyfiyyətli şəkildə həll olunması, xüsusi karantin rejiminin tətbiqi uğurlu nəticələrin əldə olunmasının başlıca səbəbləri oldu.

Beləliklə, Azərbaycanda xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində və vətəndaşların məsuliyyətli davranışı sayəsində koronavirus infeksiyasının yayılması məhdudlaşdırılıb, yoluxma hallarının sayında azalmaya nail olunub. Gündəlik yoluxma sayında azalma və yüksəlmədən asılı olmayaraq ümumən vəziyyət nəzarət altındadır.

### İnfeksiyanın kökünün tam kəsilməsi məhz özümüzdən asılıdır

Ümumdünya Səhiyyə Təşkilatı xeyli vaxtdır ki, payız aylarında koronavirusun ikinci dalğasının başlanmasının mümkünlüyü barədə həyəcan siqnalı çalır. Bu da təsadüfi deyil. Çünki payız və qış mövsümü müxtəlif xəstəliklərin aktivləşdiyi dövrdür. Bu baxımdan virusun yenidən sürətlə yayılması ehtimalı qarşıdakı dövrdə xüsusilə aktuallıq kəsb edir, təhlükə riski yüksəlir.

Son günlər bəzi ölkələrin reallığında payızda koronavirusun yenidən aktivləşəcəyi haqda səslənən proqnozlar özünü təsdiq edir. Belə ki, yay aylarında yoluxma səviyyəsində azalma müşahidə edilən ölkələrdə sentyabr ayından başlayaraq koronavirusun yayılmasında kəskin artım qeydə alınıb. Məsələn, indiyədək ən az yoluxma qeydə alınan qonşu Gürcüstanda sentyabrın girişi ilə vəziyyət gərginləşməyə başlayıb. Sentyabrın 2-də bu ölkədə 38 nəfərdə COVID-19 aşkarlanıb və bu, rekord göstəricidir - indiyədək Gürcüstanda sutka ərzində ən çox yoluxma aprel ayında qeydə alınmışdı - 34 nəfər. Sentyabrın 8-də Gürcüstanda yenidən rekord təzələnib - bu dəfə 45 nəfərdə xəstəlik tapılıb. Vəziyyətin nəzarətdən çıxa biləcəyindən ehtiyatlanan hökumət koronovirusla bağlı qaydalara dəyişikliklər etmək məcburiyyətində qalıb. Gürcüstanda yubileylər, toylar, şənliklər və digər kütləvi tədbirlərin keçirilməsi sabahdan etibarən qadağan edilib. Açıq məkanlarda da bu cür tədbirlərin keçirilməsinə qadağa qoyulub. Yoluxma sayının çox olduğu Batumi və Kabuletidə orta məktəbdə dərslər yalnız onlayn qaydada keçiriləcək.

Türkiyədə də vəziyyət son günlər pisləşdiyindən yenidən bir sıra məhdudiyyətlərin tətbiqinə başlanılıb. Sentyabrın 4-dən toy və yas mərasimləri qadağan olunub. Yeni qaydalara görə, vətəndaşlar ölkənin hər yerində maska taxmalıdırlar. Səhiyyə naziri Fəhrəttin Koca bəyan edib ki, ölkə koronavirusun birinci dalğasının ikinci pikini yaşayır. Nazir etiraf edib ki, yoluxma miqyasının artması ölkədə bayram və toy mərasimlərində vətəndaşların lazımi təhlükəsizlik tədbirlərinə riayət etməməsinin nəticəsidir.

Avropada da oxşar vəziyyətdir. Böyük Britaniyada gündəlik yoluxma sayı ötən ayla müqayisədə dəfələrlə artıb. Son 3 gün ərzində sutkada 2,5-3 minə yaxın yeni xəstələr qeydə alınır. Qeyd edək ki, sonuncu dəfə belə yüksək rəqəmlərə may ayında - ölkədə karantin dövründə rast gəlinirdi. Vəziyyəti nəzarətə götürmək üçün baş naziri Boris Conson sentyabrın 9-da koronavirusla mübarizə tədbirlərinin sərtləşdirildiyini bəyan edib. Baş nazirin açıqlamasında deyilir ki, "virusun qarşısını almaq istəyiriksə, bu addımı atmalıyıq".

Göründüyü kimi, bir sıra ölkələrdə vəziyyətin kəskinləşməsi müşahidə olunmaqdadır. Bu da istər ÜST-ün, istər tibb ekspertlərinin proqnozlarının özünü doğrultma ehtimalını artırır. Ona görə hazırkı vəziyyətdən arxayınlaşmaq qətiyyən düzgün deyil.

Respublikamızda da sanitar-epidemioloji qaydalara riayət edilməsi olduqca vacibdir. Sərhədlərin hələ bağlı olduğu indiki şəraitdə infeksiyanın kökünün tamam kəsilməsi məhz özümüzdən asılıdır. Əgər hər kəs məsuliyyətli davranarsa, müvafiq qaydalara və tələblərə əməl edərsə, ən qısa dövrdə koronavirusa qalib gələ bilərik.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

# İlham Əliyev postpandemiya dövrünün hədəflərini müəyyənləşdirir

## Prezidentin yaratdığı İqtisadi Şura iqtisadiyyatın yeni strateji istiqamətlərini və çərçivəsini dəqiqləşdirəcək

*Əvvəli 1-ci səh.*

İqtisadi siyasətin yeni idarəetmə çərçivəsi postpandemiya dövründə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsini və milli iqtisadiyyatın müasirləşdirilməsini hədəfləyən strategiyanın formalaşdırılmasını, xüsusilə onun vacib hissəsi olan iqtisadi islahatlar proqramının hazırlanmasını və uğurla həyata keçirilməsini təmin etməlidir.

### İqtisadi Şuranın yaradılması zərurəti

Prezidentin bu fərmanı ilə 4 il əvvəl yaradılmış Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası ləğv edildi. 2016-cı ildə Maliyyə Sabitliyi Şurasının yaradılması dünyada və ölkəmizdəki yeni iqtisadi situasiyaya ilə bağlı idi. O zaman yaşanan qlobal iqtisadi böhran və dünya bazarlarında neftin qiymətinin düşməsi, Azərbaycanda iki dəfə yaşanan devalvasiya və milli valyutanın sabitliyi üçün yaranmış təhlükə hökuməti sərt tədbirlər görməyə vadar edirdi.

Geniş səlahiyyətlər verilən Maliyyə Sabitliyi Şurasının əsas missiyası makro-iqtisadi və maliyyə sabitliyinin qorunub saxlanmasına nail olmaq idi. Getdikcə makroiqtisadi göstəricilərin yaxşılaşmağa doğru getməsi və milli valyutanın kursunun sabitləşməsi bu addımın effektivliyini göstərdi. Hazırda ölkənin maliyyə bazarı sabitləşib və belə demək mümkünsə, Maliyyə Sabitliyi Şurasının qarşısına qoyulmuş məqsədlərə nail olunub.

Bu gün isə hazırkı əlverişsiz qlobal mühitdə son illər ərzində əldə edilmiş sosial-iqtisadi rifah səviyyəsinin aşağı düşməsinə imkan verməmək və postpandemiya dövründə iqtisadiyyatın artım tempini yüksəltmək, qlobal böhran və pandemiya şəraitində milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi təmin etmək zərurəti yaranıb. Bütün bunları nəzərə alan cənab İlham Əliyev hər zaman olduğu kimi, uzaqgörən qərar qəbul edərək İqtisadi Şuranı yaratdı və qurumun qarşısında mühüm tələblər qoydu.

Yeni yaranan şuranın qarşısında qoyulan qlobal məqsədlər daha dayanıqlı iqtisadi artım mənbələrinin yaradılması, xüsusilə özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların cəlbi və qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyən edilməsidir.

İqtisadi Şura ölkədə makroiqtisadi sabitliyin qorunması və sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə qlobal və milli iqtisadiyyatda baş verən proseslərin öyrənilməsi, ölkə iqtisadiyyatında yarana biləcək daxili və xarici təsirlərin qarşısının alınmasına yönəlmiş qabaqlayıcı tədbirlərin görülməsi üçün təkliflərini hazırlayıb Prezidentə təqdim etməlidir. Şura postpandemiya dövründə ölkənin milli inkişaf prioritetlərini özündə əks etdirən sosial-iqtisadi inkişaf strategiyasının formalaşdırılmasına, səmərəli tənzimləmə və hüquq tətbiqetmə praktikasına nail olmalıdır.

### İlham Əliyev şura qarşısında mühüm vəzifələr və tələblər qoyub

Ləğv edilən Maliyyə Sabitliyi Şurası ilə müqayisədə İqtisadi Şuranın səlahiyyətləri və imkanları böyükdür. Yeni şuranın qərar qəbuletməyə təsiri və prosesləri koordinasiya etməyə imkanları daha genişdir.

Eyni zamanda Maliyyə Sabitliyi Şurası daha çox maliyyə sektorundakı proseslər üzrə səlahiyyətlərə malik idisə, yeni şura iqtisadiyyatın bütün sahələri üzrə dərinləşdirilmiş strategiyaların, idarəetmə çərçivələrinin hazırlanması, iqtisadi, siyasi, sosial sferalarda təşəbbüslərin göstərilməsi, eyni zamanda, biznes mühitinin, investisiya mühitinin fərmanda da qeyd olunduğu kimi, radikal yaxşılaşdırılması, yeni təşfiq mexanizmlərinin hazırlanması, on ildə iqtisadiyyatın iki dəfə böyüdülməsi kimi vəzifələri yerinə yetirməlidir.

Şuranın hazırlayacağı və prezidentə təqdim ediləcəyi təkliflər sözsüz ki, ölkəmizdə aparılan iqtisadi siyasətin yeni strateji istiqamətlərini və çərçivəsini müəyyən edəcəkdir. Bu, olduqca mühüm bir məsələdir. İqtisadi Şuranın çevik fəaliyyəti ölkəmizin hərtərəfli, dinamik inkişafının təmin edilməsində böyük rol oynaya bilər.

Sentyabrın 10-da Azərbaycan Respublikasının Baş Naziri, İqtisadi Şuranın sədri Əli Əsədovun sədrliyi ilə qurumun ilk iclası keçirilib. Qeyd edib ki, İqtisadi Şura yeni bir platforma olaraq dünya və milli iqtisadiyyat üçün mürəkkəb bir dövrdə ən çətin tapşırıqları kollegial şəkildə müzakirə etmək, ortaq məxrəcə gəlmək üçün əlverişli institutdur. Şuranın qarşıya qoyulmuş tapşırıqları yerinə yetirmək üçün bütün təşkilati, iqtisadi və maliyyə imkanları var.

Prezidentin tapşırığına əsasən, İqtisadi Şura iqtisadi siyasətin çərçivələrinə dair proqram hazırlamalıdır. Dövlət investisiyalarına paralel olaraq özəl yerli və xarici investisiyaların cəlbi yeni dövr iqtisadi siyasətin əsas istiqaməti olmalı, özəl sektorun aparıcı rolu təmin edilməli, investisiya mühitinin yaxşılaşdırılması üçün ciddi və radikal addımlar atılmalıdır.

Baş Nazir vurğulayıb ki, qeyd olunan vəzifələrin icrasını təmin etmək məqsədilə Prezidentin fərmanında İqtisadi Şuraya iqtisadiyyatın bütün sahələrində, o cümlədən fiskal, monetar və maliyyə-bank sahələrində, real sektorda, özəl investisiyaların təşviq edilməsində, dövlət müəssisələrinin fəaliyyətinin tənzimlənməsində, sosial müdafiə sisteminin səmərəliliyinin artırılmasında, səhiyyə və təhsilin inkişafında dünyada mövcud olan uğurlu modellər əsasında təkliflər hazırlanması tapşırılıb. Şura fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə yerli və xarici ekspertləri, beynəlxalq təşkilatları və elmi müəssisələri cəlb edə bilər.

Bir sözlə, milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavabın verilməsini təmin etmək məqsədilə cənab İlham Əliyev qarşıya yeni vəzifələr qoyub və bu, əlbəttə ki, ölkə iqtisadiyyatının tərəqqisi və gələcəyi üçün böyük əhəmiyyətə malikdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# *Operativ Qərargah:*

# "Sentyabrın 14-dən Bakı Metropoliteninin sərnişindaşıma fəaliyyəti bərpa edilir"

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyası ilə əlaqədar tətbiq olunmuş xüsusi karantin rejiminin 2020-ci il avqustun 5-dən mərhələli şəkildə, ayrı-ayrı sahələr üzrə yumşaldılması məqsədilə tədbirlər davam etdirilir.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il sentyabrın 14-ü saat 06:00-dan Bakı Metropoliteninin sərnişindaşıma fəaliyyəti bərpa edilir.

2020-ci il sentyabrın 30-dək şənbə və bazar günləri ictimai nəqliyyat fəaliyyət göstərmədiyinə görə sentyabrın 19-u saat 00:00-dan sentyabrın 21-i saat 06:00-dək və sentyabrın 26-sı saat 00:00-dan sentyabrın 28-i saat 06:00-dək metropolitenin sərnişindaşıma fəaliyyəti də dayandırılır.



"İctimai nəqliyyatda koronavirus (COVID-19) infeksiyasının profilaktikasına dair metodiki göstərişlər"ə uyğun olaraq koronavirus infeksiyasının yayılmasına yol verilməməsi, sərnişinlərin sağlamlığının qorunması məqsədilə metropoliten ərazisində müvafiq tədbirlər görülüb. Mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq və virusa yeni yoluxma hallarına yol verməmək üçün vətəndaşlardan mövcud karantin rejiminin tələblərinə və tibbi-profilaktik qaydalara əməl etmək xahiş olunur.

# Azərbaycanda koronavirus infeksiyasından 171 nəfər sağalıb, 163 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 171 nəfər müalicə olunaraq sağalıb, 163 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 38 min 37 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 35 min 440 nəfər müalicə olunaraq sağalıb, 557 nəfər vəfat edib. Aktiv xəstə sayı 2040 nəfərdir.

Ötən müddət ərzində 995 min 376 test aparılıb. Dünənki test sayı isə 7108-dir.

# Xüsusi karantin rejiminin təhsil tələbləri

## Azərbaycanda tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti qaydaları təsdiqlənib

*Əvvəli 1-ci səh.*

Təhsil Nazirliyinin təhsil müəssisələrində sosial məsafənin təmin edilməsi ilə bağlı təlimatında bildirilir ki, 15 sentyabr 2020-ci il tarixindən etibarən ölkənin təhsil müəssisələrində ibtidai təhsil səviyyəsi üzrə tədris və təlim-tərbiyə prosesinin başlanmasını nəzərə alaraq, sosial məsafənin saxlanılması ilə əlaqədar təhsil müəssisələri rəhbərləri tərəfindən aşağıdakılar təmin edilməlidir:

- şagirdlər (valideynləri ilə birgə də ola bilər) məktəbin həyətyanı sahəsində sosial məsafənin saxlanılması məqsədilə yerdə çəkilmiş dayanma işarələrinin üzərində dayanmalıdırlar;
- həyətyanı sahədə sosial məsafənin saxlanılması və növbə ilə məktəbə daxil olma prosesinin tənzimlənməsi üçün şagird kontingentinin sayından asılı olaraq əməkdaşlar ayrılmalı və siniflərə təhkim edilməlidir.

### Şagirdin hərarəti 37.1 dərəcədən yuxarı olduqda...

Məktəbin girişində hər bir şagirdin hərarəti ölçülməli və hərarət 37.1 dərəcədən aşağı olduğu halda o, sinif otağına yönəldilməlidir. Yox, əgər şagirdin hərarəti qeyd edilən həddən yüksəkdirsə, təxirəsalınmadan məktəbin həkimi tərəfindən valideyn təlimatlandırılmalı və geri qaytarılmalıdır.

Sosial məsafənin saxlanılması məqsədilə məktəbin həyətyanı sahəsində dayanma işarələrinə tələblər müəyyənləşdirilib. Belə ki, şagird kontingentinin sayına və məktəbin həyətyanı sahəsinə uyğun çəkilmiş dayanma işarələrinin ölçüsü (diametri) 20-30 sm olan dairə, kvadrat, düz xətt şəklində ola bilər. Dayanma işarələri ağ rəngli boya, yaxud əhəng ilə çəkilməlidir. Dayanma işarələri arasındakı məsafə ən azı 2 metr olmalıdır.

Əgər məktəbin binasında (korpuslarda) birdən çox giriş qapısı varsa, o zaman giriş qapıları müvafiq hərflərlə kodlaşdırılmalı (A, B, C və s.) və hər bir giriş qapısının önündə sosial məsafənin gözlənilməsi üçün dayanma işarələri çəkilməlidir. Bu proses daha çox şagird sıxlığı olan məktəblərə tövsiyə edilir. Belə bir variant tətbiq ediləcəyi təqdirdə, şagirdin hansı girişdən daxil olacağı barədə valideynlər əvvəlcədən məlumatlandırılmalıdırlar.

Sosial məsafənin saxlanılması məqsədilə valideynlər yerdə çəkilmiş dayanma işarələrində övladının yanında dayanmalıdırlar. Övladı məktəbin giriş qapısına daxil olduqdan sonra valideynlər məktəbin həyətyanı sahəsini tərk etməlidirlər.

Məktəbin həyətyanı sahəsində şagirdlərin və valideynlərin sosial məsafə saxlamadan kütləvi halda toplaşması və kütləvi halda şəkil çəkdirməsi yolverilməzdir.

Qeyd olunan məsələlərin mövcud qayda və təlimatlara uyğun şəkildə həyata keçirilməsinə nəzarət təhsil müəssisəsinin rəhbəri tərəfindən həyata keçiriləcək. Təhsil Nazirliyinin müvafiq struktur bölmələri tərəfindən mütəmadi olaraq prosesə nəzarət ediləcək. Monitorinqlər zamanı müvafiq qaydalara əməl etməyən müəssisə rəhbərləri aşkarlandığı halda, onlar barəsində intizam tənbehi tədbirləri görüləcək.

### Yaşı 65-dən yuxarı olan təhsilverənlərin işində yaranan fasilələrə baxmayaraq əməkhaqları saxlanılır

Nazirlər Kabineti "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nı təsdiq edib.

Bu qaydaların tələblərinə əməl edilməsinə nəzarəti müəssisənin rəhbəri edir. Eyni zamanda təhsil müəssisələrində operativ nəzarət üzrə məsul şəxs (şəxslər) təyin olunur. Operativ nəzarət üzrə məsul şəxs (şəxslər) COVID-19-a yoluxma hallarının qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin təşkili, yoluxma hallarının effektiv idarə olunması, tədris və təlim-tərbiyə prosesinin iştirakçılarına bu cür hallarla bağlı təsirlərin minimuma endirilməsi üçün cavabdehdir.



Adıçəkilən qaydalarda təhsilverənlərə dair tələblər də açıqlanıb. Qeyd edilib ki, təhsil müəssisələrində əyani formada tədris və təlim-tərbiyə prosesinə yaşı 65-dən aşağı olan təhsilverənlər cəlb olunurlar.

Təhsilverənlərə əməkhaqqının hesablanmasında distant (məsafədən) formada tədris edilən dərs yükü nəzərə alınır. Tədris və təlim-tərbiyə prosesinə cəlb olunmayan yaşı 65-dən yuxarı olan təhsilverənlərin işində yaranan fasilələr onların iş vaxtına daxil edilir və əməkhaqqı saxlanılır.

Qaydalarda, həmçinin göstərilir ki, iş prosesində tibbi və ya parça maskalardan, üz sipəri və digər qoruyucu vasitələrdən istifadə edilməlidir. İstifadə edilən fərdi qoruyucu vasitələr mütəmadi olaraq, habelə çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməli və bu zaman əllərin gigiyenasına dair tələblərə riayət edilməlidir.

İş vaxtı ərzində təhsilverəndə bədən hərarətinin 37.1 dərəcə və ya daha yüksək olduğu müəyyən edildikdə və ya hər hansı xəstəlik əlamətləri müşahidə olunduqda (yüksək hərarət, öskürək, nəfəs darlığı, dadbilmə, iybilmə hissinin itməsi, halsızlıq və s.), bu qaydaların tələblərinə uyğun tədbirlər görülür.

### Təhsil müəssisələrində idman və akt zallarından, kitabxana və hovuzdan istifadə dayandırılır

Xüsusi karantin rejimi dövründə dərslərarası (məşğələlərarası) fasilələrə, gəzinti müddətinə dair tələblərə əsasən, adıçəkilən fasilələr 10 dəqiqədən az olmayaraq müəyyən edilir. Fasilələrdə təhsilalanların imkan daxilində təmiz havada olması təmin edilir. Məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət məşğələsi təmassız oyunlarla məhdudlaşdırılır.

Nazirlər Kabinetinin qərarına əsasən, xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində idman və akt zallarından, kitabxana və hovuzdan istifadə dayandırılır.

Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində sanitariya qovşaqlarına olan tələblərə əsasən, sanitariya qovşağının döşəməsi, çanaqlar, qapı tutacaqları və digər istifadə olunan səthlər xüsusi dezinfeksiyaedici vasitələrlə hər iki saatdan bir təmizlənməli və dezinfeksiya edilməlidir. Sanitariya qovşaqlarında maye sabun, dezinfeksiyaedici məhlul hər zaman olmalıdır.

Sanitariya qovşaqlarının girişi qarşısında fiziki (sosial) məsafənin saxlanması üçün döşəmə və keçidlərə xəbərdaredici nişanlar yerləşdirilməli, eləcə də giriş qapısı önündə və tamburda dezinfeksiyaedici vasitələrlə isladılmış dezinfeksiyaedici ayaqaltılar və əllərin dezinfeksiyası üçün spirt tərkibli antiseptiklər olmalıdır.

Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində yataqxanalara (yataq otaqlarına) dair tələblərdə isə qeyd edilir ki, təhsil müəssisəsinin nəzdindəki yataqxanalarda qalacaq təhsilalanların sayı yenidən nəzərdən keçirilməli və bu qaydalarla müəyyən edilmiş sosial məsafə tələblərinin tətbiqinə imkan verən sayda təhsilalana xidmət göstərilməlidir.

Təhsilalanların otaqlarını dəyişməsinə, qaldığı otaqlara eyni otaqda qalanlar istisna olmaqla, kənar şəxslərin daxil olmasına icazə verilmir.

### Bu hallarda təhsil müəssisəsinin fəaliyyətinin dayandırılması barədə qərar qəbul edilməlidir

Təhsilalanın yataqxanada qaldığı müddətdə bədən hərarətinin 37.1°C və ya daha yüksək olduğu müəyyən olunduqda və ya hər hansı xəstəlik əlamətləri müşahidə edildikdə (yüksək hərarət, öskürək, nəfəs darlığı, dadbilmə və iybilmə hissinin itməsi, halsızlıq və s.), bu Qaydaların müvafiq müddəalarına uyğun tədbirlər görülür.

Yoluxucu xəstəlik əlamətləri aşkar edilənlərin müvəqqəti təcrid edilməsi üçün ən azı iki çarpayılıq izolyasiya otağı daimi olaraq təchiz edilmiş vəziyyətdə saxlanılmalıdır.

Yataqxananın girişlərində dezinfeksiya vasitəsi yerləşdirilir, sosial məsafə və gigiyena qaydalarına riayət edilir, çarpayılar arasında ən azı 1,5 metr məsafə olur.

Təhsil müəssisəsində COVID-19 virusunun şübhə doğurduğu hallarda ünsiyyət üçün yetərli sayda müvafiq qoruyucu geyimlərin (üz üçün sipər, baxil, tibbi əlcək, tibbi maska) olması təmin edilməlidir. Xəstəlik şübhəsi olan şəxs dərhal yaşadığı yerə göndərilməli (təhsilalandırsa, valideyninə və ya digər qanuni nümayəndəsinə məlumat verilməli) və 103 Təcili Tibbi Yardıma müraciət edilərək həkimlər tərəfindən laboratoriya müayinəsindən, tələb olunduğu halda COVID-19 testindən keçməli və yaşadığı yerdə özünütəcrid rejimində olmalıdır.

Kütləvi xəstəlik şübhəsi hallarında hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandığı zaman Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin rəyi əsasında Təhsil Nazirliyini məlumatlandırmaqla, təhsil müəssisəsinin və ya ayrı-ayrı siniflərin (qrupların) fəaliyyətinin dayandırılması barədə qərar qəbul edilməlidir.

### Bu təhsil müəssisələrində tibbi maskadan istifadə məcburi olmayacaq, amma...

Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənən xüsusi karantin rejimi dövründə təhsilalanlara dair tələblərdə bildirilir ki, xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində təhsilalanların məktəbəqədər və ümumi təhsil müəssisələrində, uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində maskadan istifadəsi onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin seçiminə verilir.

Peşə, orta ixtisas və ali təhsil müəssisələrində isə maskadan istifadə məcburidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Unudulmazlar

# Mətin insan

**Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin komissiya sədri Fəttah Heydərovun vəfatı tək onu tanıyanların, yaxınlarının deyil, mübaliğəsiz desək, qədirbilən xalqımız üçün itki oldu. Tariximizin mühüm dövrlərinin fəal iştirakçısı, ictimai-siyasi proseslərdə əzmkar, mərd, dönməz xarakteri ilə prinsipial insan obrazı yaratmış bu dəyərli insan, heç şübhəsiz, salnaməmizdə və yaddaşlarda daim xoş duyğularla, ehtiramla anılacaq.**



1938-ci ildə Azərbaycanın ən qədim və zəngin yaşayış məskənlərindən biri olan Naxçıvanın Çeşməbasar kəndində dünyaya gələn Fəttah Səməd oğlu Heydərov Böyük Vətən müharibəsinin qanlı-qadalı, barıt qoxulu illərini yaşamış, Qələbə ovqatı yaranan dövrdə birinci sinifə qədəm qoymuşdur. Fəal və qabaqcıl şagird kimi tanınan bu yeniyetmə Nehrəm kənd orta məktəbini bitirdikdən sonra ülvi arzularını gerçəkləşdirmək ümidi ilə Bakıya üz tutaraq əvvəlcə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsini, sonra isə Bakı Ali Partiya Məktəbini bitirmişdir.

İlk olaraq Naxçıvanda Güznüt kənd klubunun müdiri kimi əmək fəaliyyətinə başlayan Fəttah Heydərov sonralar Çeşməbasar kənd səkkizillik məktəbində müəllim işləyərək, xalqımızın balalarının savadlanması üçün bilik və bacarığını əsirgəməmiş, həmin illərdə özü də zəngin həyat təcrübəsi qazanmağa başlamışdır. Fəallığı, tapşırılan işə həssas münasibəti və yüksək məsuliyyət hissi onun Naxçıvan Vilayət Partiya Komitəsinin təlimatçısı, sonra isə Ordubad Rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsinə irəli çəkilməsinə səbəb olmuşdur. Təşkilatçılıq işinin sirlərini öyrənən Fəttah Heydərov, necə deyərlər, bir daha sınaqdan keçirilmiş - artıq 38 yaşında Naxçıvan MSSR Əhaliyə Məişət Xidməti naziri kimi məsuliyyətli bir vəzifəyə təyin edilmişdir. Rəhbər vəzifədə çalışdığı vaxt ərzində bir an belə unutmamışdır ki, insanların rahatlığı, xoş əhvali-ruhiyyəsi məişətçilərin işinin təşkilindən xeyli dərəcədə asılıdır. Bir nazir kimi işdə nöqsanlara qarşı barışmazlıq, ciddi intizam, xalq, dövlət əmlakına qayğılı münasibət Fəttah Heydərovun başlıca amalı olmuşdur.

Artıq 1978-ci ilin əvvəllərində həyat və istehsalat təcrübəsinə sahib yetkin bir kadr kimi Fəttah Heydərov Ordubad Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə irəli çəkilmişdir. Burada o, rayonun inkişafına, ilk növbədə, kənd təsərrüfatının yüksəlişinə nail olmaqla yanaşı, o zaman unudulmuş, hətta bərpasına qadağa qoyulmuş, lakin tariximizin öyrənilməsi, maddi mədəniyyət nümunələrimizin və xalqımızın milli, mənəvi, dini dəyərlərinin yaşadılması baxımından böyük əhəmiyyət kəsb edən vacib sahələrə də diqqət və qayğı göstərmişdir. Fəttah Heydərovun rəhbərliyi dövründə rayondakı Came və Sərşəhər məscidlərinin, Zorxana binasının, Buzxananın, həmçinin memarlıq və dini dəyərləri özündə əks etdirən bir sıra digər qiymətli binaların mühafizə edilməsində və bərpasında əhəmiyyətli işlər görülmüşdür.

1980-ci ilin əvvəllərində Culfa Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə təyin edilən Fəttah Heydərovun başçılığı altında rayon zəhmətkeşləri kənd təsərrüfatı məhsulları istehsalının artırılması və satışının təmin edilməsi sahəsində böyük uğurlar qazanmışlar. Kənd təsərrüfatı məhsullarının əsas növlərinin satışı üzrə tapşırıqlar vaxtından xeyli əvvəl yerinə yetirilmişdir.

Sonrakı dövrdə Fəttah Heydərov Naxçıvanda Mədəniyyət naziri vəzifəsində çalışmışdır. Həmin illər ərzində muxtar respublikada mədəniyyət sahəsində diqqətəlayiq işlər görülmüşdür - mədəniyyət müəssisələrinin maddi-texniki bazası əvvəlki illərə nisbətən xeyli möhkəmləndirilmiş, müəssisələrə inventar və avadanlıqlar alınmış, bir çox təmir işləri yerinə yetirilmiş, həmçinin kəndlərdə yeni mədəniyyət evləri, uşaq musiqi məktəbləri tikilib istifadəyə verilmişdir. Naxçıvan şəhərində general C.Naxçıvanskinin ev-muzeyi, respublika kitabxanası və respublika uşaq kitabxanası yenidən qurulmuş, bir çox mədəni-maarif müəssisələri ictimai əsaslarla təmir edilmiş, muxtar respublika əhalisi üçün əhəmiyyətli olan digər işlər yerinə yetirilmişdir.

Bütün bunlarla yanaşı, Fəttah Heydərov 1970-1990-cı illərdə Naxçıvan şəhər və Ordubad rayon Xalq Deputatları sovetlərinin deputatı olaraq insanlarla birgə fəaliyyət göstərməyi, xalqa xidmət etməyi böyük məsuliyyətlə həyata keçirmişdir.

Bütün həyatını Azərbaycan dövlətinin və xalqının inkişafına, tərəqqisinə həsr etmiş, 1990-1995-ci illərdə Naxçıvan MR Ali Sovetinin deputatı olmuş Fəttah Heydərov 1995-ci ildən daha məsuliyyətli vəzifəni üzərinə götürmüşdür. Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərdə Qəbələ rayonu seçicilərinin böyük etimadını qazanaraq millət vəkili seçilmiş Fəttah Heydərov 2020-ci ilə qədər bu şərəfli missiyanı daşımış, millətimizin rifahı naminə taleyüklü qərar və qanunların qəbul olunmasında, xalqımızı narahat edən bir çox problemli məsələlərin həllində yaxından iştirak etmiş, vətəndaşlarımızın qayğılarını daim diqqət mərkəzində saxlamışdır.

Fəttah Heydərov 2013-cü ildən 2020-ci ilə qədər 7 il uğurla və böyük əzmkarlıqla Azərbaycan Ağsaqqallar Şurasına sədrlik etmişdir. 1989-cu ildə təsis edilən Azərbaycan Ağsaqqallar Şurasının ilk sədri akademik İmam Mustafayevin vəfatından sonra 1997-ci ildə akademik Budaq Budaqov Azərbaycan Ağsaqqallar Şurasının III növbədənkənar qurultayında Şuranın sədri seçilmişdir. Azərbaycan Ağsaqqallar Şurasının 2002 və 2009-cu illərdə keçirilən IV və V qurultaylarında yenidən Şuranın sədri seçilən Budaq Budaqov bu məsuliyyətli və şərəfli vəzifəni o dövrdəki sədr müavinləri - Fəttah Heydərov, Bayram Yusifov və Əli Həsənovla birgə daşıyırdı. Akademik Budaq Budaqovun vəfatından sonra - 2013-cü ildə Azərbaycan Ağsaqqallar Şurasının növbədənkənar VI qurultayında digər sahələrdə olduğu kimi, Şuranın idarəçiliyində də böyük təcrübəsi olan Azərbaycan Milli Məclisinin deputatı Fəttah Heydərov təşkilatın sədri seçildi və buradakı əzmkar fəaliyyətini amansız ölüm onu bizdən ayırana qədər - 2020-ci ilədək yüksək səviyyədə davam etdirdi.

Bu illər ərzində Fəttah Heydərov özünün zəngin biliyi və geniş fəaliyyəti ilə Azərbaycan Ağsaqqallar Şurasının fəaliyyətinə böyük töhfələr verdi. Onun rəhbərliyi altında Azərbaycan ağsaqqalları qarşılarında duran əsas vəzifələrin öhdəsindən layiqincə gələrək Ümummilli Lider Heydər Əliyevin bizə ərməğan etdiyi, möhtərəm Prezident cənab İlham Əliyevin isə daha da inkişaf etdirdiyi və hərtərəfli zənginləşdirdiyi dövlətimizin qorunmasına və gələcək nəsillərə ötürülməsinə ürəkdən xidmətlərini etmişdilər. Milli-mənəvi dəyərlərimizin qızıl fondu sayılan ağsaqqallarımız Fəttah Heydərovun başçılığı ilə cəmiyyətin sağlam ruhda inkişafı, gənc nəslin yüksək vətənpərvərlik ruhunda böyüməsi üçün üzərlərinə düşən missiyaları daim böyük əzmkarlıqla davam etdirmiş, Ulu Öndər Heydər Əliyevin mənəvi irsinin, bu fövqəlbəşər şəxsiyyətin zəngin dövlətçilik təcrübəsinin, idarəetmə fəlsəfəsinin öyrənilməsi və gənc nəslə çatdırılması sahəsində ciddi işlər aparmışlar. Fəttah Heydərovun şərəfli və məhsuldar ömür yolu, mənəvi saflığı və vətəndaş böyüklüyü cəmiyyətimiz, xüsusilə gənc nəsil üçün bir nümunə məktəbi olmuşdur.

Fəttah Heydərov Azərbaycanın həlledici tarixi məqamlarında həmişə milli və dövlət maraqlarını üstün tutaraq xalqa və Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sadiqlik nümayiş etdirmiş, ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycanın gələcək tərəqqisinə, iqtisadi yüksəlişinə istiqamətlənmiş uğurlu siyasətinin yanında olmuşdur. Tutduğu vəzifələrdəki uğurlu fəaliyyətinə görə Fəttah Heydərov bir çox mükafatlarla təltif edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin ictimai-siyasi həyatında uzunmüddətli fəal və səmərəli iştirakına görə "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenlərinə layiq görülmüşdür. Bu vətənpərvər insan üçün ən böyük mükafat isə dövlətimizin göstərdiyi yüksək etimadla yanaşı, xalqımızın ona olan tükənməz sevgisi idi.

Müdrikcəsinə deyib atalarımız: "Yaxşı gündə düşmən gələr dost olar, igid odur yaman gündə dayansın". Yaman günün dostu idi Fəttah müəllim. Hər bir dostun fəxr edə biləcəyi insan idi. Gəldiyi vaxt boşluq dolduran dost deyildi, getdiyi vaxt yeri doldurulmayan unudulmaz dost idi Fəttah müəllim...

İnsan təbiətin tacı, yer üzünün əşrəfidir. Uludur, alidir, ülvidir, ucadır. Bu şərəfli adı şərəflə daşıyan, şərəflə yaşayan insan idi Fəttah müəllim. Təbiətən mülayim, xoşrəftar, diqqətcil, qayğıkeş, tələbkar idi. Səmimi, özü bütöv, sözübütöv, istiqanlı, vətəncanlı idi. Dövləti ilə fəxr edən, xalqı ilə qürur duyan idi.

Fəttah müəllim Ulu Öndər Heydər Əliyevin məsləkdaşı, mətin iradəli sınanmış əsgəri idi. Müstəqilliyimizin, dövlətimizin, dövlətçiliyimizin inkişafında əməyi vardı.

Fəttah müəllim Allah adamıydı. Dinə inanan, iman gətirən idi, hacı idi. "Qurani Kərim"i dərindən bilər, yeri gəldikdə, müqəddəs kitabın hikmətlərindən misallar gətirərdi.

Fəttah müəllim yüksək mədəniyyətə, zəngin mənəviyyata malik ziyalı idi. Dərin biliyi, geniş erudisiyası, güclü məntiqi ilə seçilən ziyalı idi. Nurlu, işıqlı ziyalı. Davranışı, hərəkəti, hətta sadə geyim tərzi ilə seçilən ziyalı...

1995-ci ildə hər ikimiz Milli Məclisə deputat seçildik. Tanışlığımız dostluğa çevrildi. Son illər Fəttah müəllim Azərbaycan Ağsaqqallar Şurasının sədri, mən isə onun müavinlərindən biri idim. Məqsədimiz, məramımız hörmətli Prezident cənab İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləmək, gənclərin vətənpərvərlik ruhunda yetişməsində xidmət göstərmək idi...

Neyləyəsən ki, ölüm haqdır, alın yazısı qaçılmazdır. Bir gün gələn bir gün gedər fani dünyadan. Ancaq unudulmaz Fəttah müəllimin alicənablığı, parlaq siması xatirələrdə yaşayacaq, yad ediləcək, anılacaq.

Qəbri nurla dolsun!

***Teymur BÜNYADOV,***
***Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, akademik***

# ADA Universiteti "Baku Dialogues" jurnalının yeni nəşrini və yeni veb-saytını təqdim edib

ADA Universiteti "Baku Dialogues" ("Bakı Dialoqları") jurnalının yeni nömrəsini və veb-saytını təqdim edib.

Bu barədə AZƏRTAC-a ADA Universitetindən məlumat verilib. Jurnalın "İpək Yolu" bölgəsinin geosiyasi əhəmiyyətinə və qlobal arenadakı roluna fokuslanan bu nömrəsində yerli və xarici tanınmış mütəxəssislərin məqalə və müsahibəsi yer alıb. Oxucular bu nəşrdə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayevin amerikalı analitik Zbiqnev Bjezinski barədə yazdığı fikirlərlə və Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Azərbaycanın xarici siyasət konsepsiyası ilə bağlı xüsusi müsahibəsi ilə tanış ola biləcəklər.

Jurnalda Corctaun Universitetinin professoru Brenda Şafferin, Brüsseldə yerləşən Avropa Siyasət Mərkəzinin baş siyasi analitiki Amanda Paulun və Beynəlxalq Təhlükəsizlik və Strateji Mərkəzinin ("Tsinghua" Universiteti) Çin Forumunun baş mütəxəssisi Yu Hongjunun məqalələri də daxil olmaqla, ümumilikdə, 11 məqalə yer alıb. "Baku Dialogues"un yeni təqdim edilən saytının interaktiv strukturu vasitəsilə isə istifadəçilər jurnalın yeni və əvvəlki saylarından, elanlarından və növbəti tədbirlərindən xəbərdar olacaqlar. Veb-sayt həm də istifadəçilərə ödənişsiz abunəlik və arxiv bölməsində toplanan nəşrləri yükləmə imkanı verir.

"ADA Universiteti "Baku Dilogues"un həm yeni nəşrini, həm də yeni veb-saytını təqdim etməklə daha geniş alim və oxucu kütləsi cəlb edəcək. Veb-saytın daim yenilənəcək kontentində jurnalda nəşr edilən və tanınmış siyasətçilər, şərhçilər, tədqiqatçılar, alim və analitiklər tərəfindən yazılan məqalələr oxuculara təqdim ediləcək", - deyə jurnalın baş redaktoru və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə bildirib.

Qeyd edək ki, veb-sayta masaüstü kompüterlər, noutbuklar, mobil cihazlar, planşetlər də daxil olmaqla bir çox elektron cihazdan daxil olmaq mümkündür. İstifadəçilər keçid vasitəsilə sayta daxil ola və "Baku Dialogues"un yeni nömrəsini yükləyə bilərlər. "Baku Dialogues" ADA Universitetinin ingilis dilində nəşr edilən rüblük jurnalıdır. Bu ilin sentyabr ayından etibarən jurnal "İpək Yolu bölgəsi üzərində siyasi perspektivlər" başlığı ilə dərc edilir.

Jurnalın fiziki və elektron nüsxələri bir çox kanal və platformalar vasitəsilə ödənişsiz əsaslarla geniş oxucu kütləsinə çatdırılır.



## Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi
## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
## 2020-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə
## *doktoranturaya və dissertanturaya qəbul elan edir*

Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar. "Elmlər doktoru" elmi dərəcəsi almaq üçün "fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi sayılan, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri, 2 il elmi-pedaqoji iş stajı və minimum 1 beynəlxalq nüfuzlu jurnalda məqalə dərc etdirən namizədlərə üstünlük verilir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında doktoranturada təhsil dövlət hesabına və ödənişli əsaslarla həyata keçirilir. Fəlsəfə və elmlər doktorluğu üzrə doktorantura və dissertanturaya qəbul 2 ixtisas üzrə aparılacaqdır.

"3245.01- Bərpa təbabəti, idman təbabəti, müalicəvi bədən tərbiyəsi, kurortologiya və fizioterapiya"

"5806.01-Fiziki tərbiyənin, idman təliminin nəzəriyyəsi və metodikası"

**1.** Doktorantura və ya dissertanturaya müraciət haqqında ərizə universitet rektorunun adına yazılır. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
- kadrların şəxsi qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə)
- iş yerindən xasiyyətnamə;
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi əsərlərin siyahısı (surətləri əlavə edilməklə) və ya seçilmiş ixtisas üzrə 20-25 səhifəlik referat;
- ali təhsil haqqında diplomların (diplomun) və qiymət cədvəllərinin surətlərinin notarial qaydada təsdiqi (xarici ölkələrdə təhsil almış vətəndaşlar üçün təhsil haqqında sənədin tanınması haqqında Təhsil Nazirliyinin şəhadətnaməsi);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- fəlsəfə doktoru (elmlər namizədi) diplomunun surətinin notarial qaydada təsdiqi (elmlər doktoru proqramı üzrə sənəd verənlər üçün).

**2.** Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - DİM) tərəfindən keçirilir. Xarici dil üzrə imtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı DİM tərəfindən müəyyənləşdirilir.

**3.** Hər imtahan başa çatdıqdan sonra onun nəticəsi elan olunur. Birinci imtahandan kafi qiymət alan şəxslər növbəti imtahanlara buraxılır.

**4.** Doktoranturaya və dissertanturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli 443 nömrəli doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydalarına müvafiq olaraq aparılır.

**5.** Sənəd qəbulu üçün son tarix 29 sentyabr 2020-ci ildir.

**6.** Sənədləri elektron formada master@sport.edu.az mail ünvanına göndərməyiniz xahiş olunur.

**Ünvan: Bakı şəhəri, Fətəli Xan Xoyski küçəsi, 98 AZ1072**

**Tel: (+994 12) 564-73-88**

***Tender komissiyası***


# Ermənistan ordusunun bölmələri iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam, Koxanəbi, Əsrik Cırdaxan və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Füzuli rayonunun Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Paşinyana Ermənistan əhalisinin cəmi 17 faizi inanır

## ABŞ səfirliyinin işğalçı ölkədə keçirdiyi rəy sorğusunun nəticəsinə görə, əhali baş nazirə etibar etmir

*Əvvəli 1-ci səh.*

Qeyd olunur ki, bu, açıq-aydın məlum idi və başqa cür də ola bilməzdi, çünki hakimiyyət dəyişikliyi belə ziyanları nəzərdə tutur. Vəziyyətin zaman keçdikcə yaxşılaşacağına ümid edirik. Növbəti seçkilərdə daha balanslı bir parlamentə və yaxşı qurulmuş bir siyasi sistemə sahib ola bilsək, müəyyən məhdudiyyətlər və əks balans sistemi əldə edə bilərik. Ancaq hazırda bütün bunlar çatışmır, ola da bilməz, çünki hakimiyyət dəyişikliyi baş verdi və hər şey bu məntiqə uyğun düşünülməlidir.

Vurğulanır ki, hökumət müxalifəti yalnız məcburi şəkildə başqa seçimi olmadığı halda dinləməyə məcburdur. Başqa sözlə, təkbaşına hərəkət etmək və siyasi itkilərə məruz qalmamaq mümkündürsə, hökumət həmişə uyğun gördüyü kimi hərəkət edəcək. Siyasi vəziyyət, hazırkı sistem hakimiyyətə istədikləri kimi hərəkət etməyə imkan verir. Ancaq bu, təbii ki, qısamüddətdə belə olur. Məsələ uzun müddətdə fərqli xarakter alır. Hər dəfə tamamlanmamış, səhv olan və ətrafında müəyyən bir səs-küy yaradan yeni bir qərar qəbul edildikdə, bu hallar mənfi duyğulara səbəb olur. Bütün bunlar toplanır, yığılır və bir gün öz siyasi ifadəsinə sahib olur.

Qəzet yazır ki, keçmişdə əvvəlki hakimiyyət də bir çox hallarda tək hərəkət edirdi. Onların böyük gücü vardı və həmişə haqlı olduqlarını düşünürdülər, hesab edirdilər ki, heç bir şey hakimiyyəti devirə bilməz. Ancaq tarix göstərdi ki, kiçik yığılmalar böyük bir siyasi hadisə zamanı çox güclü və kobud üsulla ifadə olunur.

Paşinyan hökümətinin əhaliyə verdiyi əsas vədlərdən biri sosial-iqtisadi problemlərin həlli, yeni iş yerlərinin yaradılması ilə bağlı idi. Amma son vəziyyətin təhlili göstərir ki, iqtidar nəinki yeni iş yerləri açır, əksinə, olanları da bağlayır. Bu da Ermənistanda kütləvi narazılıq yaradır, Paşinyana qarşı çıxanların sayının sürətlə artdığını nümayiş etdirir.

Bu günlərdə keçirilən rəy sorğusu Paşinyanın nüfuzunun daha sürətlə aşağı düşdüyünü növbəti dəfə göstərib. Yerli medianın yazdığına görə, ABŞ-ın Ermənistandakı səfirliyi və müxalifət partiyalarından biri ölkədəki vəziyyəti öyrənmək və baş nazir Nikol Paşinyanın reytinqini müəyyənləşdirmək üçün rəy sorğusu keçirib. Sorğu daxili istifadə üçün nəzərdə tutulub və nəticələri ictimaiyyətə açıqlanmayıb. Buna baxmayaraq, "Past" qəzeti bəzi məlumatları əldə edib. Rəy sorğusunun nəticələrinə əsasən, Paşinyanın və bütövlükdə, hökumətin reytinqi sürətlə azalır. Belə ki, baş nazirin reytinqi tarixi antirekord vurub. Respondentlərin yalnız 17,2 faizi baş naziri dəstəkləyib.

Nikol Paşinyan isə Nazirlər Kabinetinin iclasında koronavirusun ölkəsinin sosial-iqtisadi vəziyyətinə ciddi zərbə vurduğunu, lakin ortada sosial böhranın olmadığını bildirib. Deyib ki, sosial-iqtisadi vəziyyəti öyrənməyin üsullarından biri də alış-veriş çeklərinin həcminin ölçülməsidir. Hazırda bu yöndə 2,5 faiz azalma var və bu vəziyyətin ağır olduğunu bildirir. Amma oxşar vəziyyət 2019-cu ildə də olub. Lakin pandemiyanın ikinci dalğasının yenidən başlanması halında iqtisadiyyatın tamamilə çökməsi labüd olacaq ölkələr də mövcuddur ki, onların sırasında Ermənistan xüsusilə seçilir. Bu, ölkənin özündə də açıq etiraf edilir ki, ABŞ və Avropa iqtisadiyyatında yaranan çətinliklər yeni dünya böhranına rəvac verərsə, Ermənistan daha böyük sosial-iqtisadi problemlərlə üzləşəcək. Bunu şərtləndirən bir neçə önəmli səbəb var. Əvvəla, koronavirus nəticəsində yaranan maliyyə böhranı Ermənistanın onsuz də bərbad olan iqtisadiyyatına böyük zərbə vurub. Elə bunun nəticəsidir ki, böhranın özünün zirvə nöqtəsinə çatdığı cari ilin aprel ayından bəri Ermənistanda böyük tənəzzül yaşanır.

Ümumiyyətlə, Paşinyanın hakimiyyətə gəlməsindən 2 il müddət keçməsinə baxmayaraq, ötən dövr ərzində rəqabətədavamlı hər hansı istehsal sahəsinin yaradılmaması, kiçik və orta sahibkarlığın məhvinin astanasına çatması, infrastrukturun yoxluğu da vəziyyəti ağırlaşdıran əsas səbəblər sırasında yer alır.

Bununla yanaşı, Ermənistanın xarici investisiyalar üzünə həsrət qalan dövlətlərdən biri olması, iqtisadiyyatının bir neçə məmur oliqarxın əlində cəmləşməsi, inhisarçılığın, korrupsiya və rüşvətxorluğun dərin kök salması da sözügedən ölkəni problemlər məngənəsində boğan əsas faktorlardandır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Beynəlxalq aləm

## Türkiyədə "Yıldırım" 54 terrorçunu vurub

Türkiyənin cənub-şərqində yerləşən Siirt əyalətində 1003 polis və jandarma əməkdaşlarının iştirakı ilə "Yıldırım" əməliyyatının 11-ci mərhələsi başlanılıb. Bu barədə Türkiyə DİN-dən məlumat verilib. Nazirlikdən bildiriblər ki, əvvəlki 10 əməliyyat çərçivəsində 54 terrorçu zərərsizləşdirilib.

PKK terrorçuları ölkədə sabitliyi pozmaq və Türkiyəni parçalamaq üçün qanlı terror aktları törədirlər.

## İordaniyanın hərbi anbarında partlayış baş verib

İordaniya Silahlı Qüvvələrinin, krallığın mərkəzi hissəsində - Zarka şəhərində yerləşən döyüş sursatları anbarında güclü partlayış baş verib. İlkin məlumata görə, partlayışa qısa qapanma səbəb olub. Bu barədə Röyter Agentliyi xəbər verir.

Hökumətin rəsmi nümayəndəsi Əmcəd Adayilə bildirib ki, partlayış nəticəsində zərər çəkən olmayıb.

## Danimarkanın Baş naziri sünnət qadağasına qarşı çıxdı

Danimarkanın Baş naziri Mette Frederiksen ölkədə sünnət etmək qadağasına qarşı çıxıb. O, sosial şəbəkələrdə öz səhifəsində ölkədə sünnət qadağasının fəal müzakirə olunduğunu şərh edib. Baş nazir İkinci Dünya müharibəsi zamanı 6 milyondan çox yəhudinin ölümünü xatırladıb. "İkinci Dünya müharibəsi başa çatdıqdan sonra mənim Sosial-Demokrat Partiyam Danimarkada yəhudilərin artıq təqiblərə məruz qalmayacaqlarını vəd etdi. Mən bunu bir daha bəyan edirəm", - deyə Frederiksen bildirib.

Frederiksenin dediyinə görə, əvvəllər o, əks fikirdə olub, lakin rəyini dəyişib. "Danimarka yəhudi mədəniyyətinin ayrılmaz bir hissəsi olan mərasimlərdən birini qadağan etməlidirmi? Yəhudilər əsrlər boyu olduğu kimi, öz həyatlarını yaşamaq imkanına malik olmalıdırlar", - deyə Baş nazir vurğulayıb. Danimarkada hər il 2 000-dək şəxs sünnət edilir.

## Planetdə yarım əsr ərzində heyvanların sayı 68% azalıb

Ötən 50 il ərzində onurğalı heyvanların üçdə iki hissəsindən çoxu insanlar üzündən tələf olub. Bu barədə Dünya Vəhşi Təbiət Fondunun "Live planet 2020" adlı məruzəsində deyilir.

Belə ki, 1970-ci ildən başlayaraq Yer kürəsində quşlar və balıqlar da daxil olmaqla onurğalıların populyasiyalarının sayı 68% azalıb. Səbəblər-qlobal iqtisadi artım və ekstensiv təsərrüfatdır ki, buna görə canlı orqanizmlərin yaşayış yerləri məhv edilir, iqlim dəyişir, meşələr yox olur və dünya okeanının suları çirklənir.

Alimlərin proqnozlarına görə, dünya gücləndirilmiş təbiəti mühafizə tədbirləri və davamlı iqtisadiyyata keçidi birləşdirərsə, on il qabaqkı biomüxtəlifliyin səviyyəsinə yalnız 2070-ci ilədək qayıda bilər.

## BMT: Səfər məhdudiyyətlərini dünya ölkələrinin yarıdan çoxu yumşaldıb

Koronavirusun yayılmasının qarşısını almaq üçün tətbiq olunan səfər məhdudiyyətlərini 115 dövlət - dünya ölkələrinin yarıdan çoxu (53%) yumşaldıb. Bu barədə BMT-nin Ümumdünya Turizm Təşkilatı məlumat verir. İki dövlət səyahət üçün bütün məhdudiyyətləri aradan qaldırıb, qalanları isə məhdudlaşdırıcı tədbirlərin bir hissəsini qoruyub, - deyə təşkilatda məsələyə aydınlıq gətiriblər. Qeyd edilib ki, inkişaf etmiş iqtisadiyyata malik dövlətlərin 79%-i səyahətlərə məhdudiyyətləri tədricən aradan qaldırır, inkişaf etməkdə olan ölkələr arasında isə bu, 47% təşkil edir.

Lakin 93 ölkənin sərhədləri hələ də səyahət edənlər üçün tamamilə bağlıdır. Bunun azı 30 həftə belə qalması gözlənilir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Xarici ticarətdə 1,9 milyard dollardan çox müsbət saldo var

Bu ilin yanvar-iyul aylarında Azərbaycan dünyanın 172 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 102 ölkəyə məhsul ixrac, 160 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu dövrdə ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 13 milyard 777,6 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 7 milyard 876,8 milyon dollarını (57,2 faizini) ixrac, 5 milyard 900,8 milyon dollarını (42,8 faizini) idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 1 milyard 976 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2019-cu ilin yanvar-iyul ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 30,9, real ifadədə 22,5, o cümlədən idxal 43,4, ixrac 7,1 faiz azalmışdır.

Cari ilin yanvar-iyul aylarında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 8,6, real ifadədə 17,1 faiz azalaraq 1 milyard 35,1 milyon dollar olmuşdur.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 32,1 faizini İtaliyaya, 18,7 faizini Türkiyəyə, 4,7 faizini Rusiyaya, 4,1 faizini Çinə, 4,0 faizini Hindistana, 3,9 faizini İsrailə, 3,7 faizini Xorvatiyaya, 3,4 faizini Yunanıstana, 3,1 faizini Gürcüstana, 3 faizini Ukraynaya, 2,5 faizini İspaniyaya, 2,1 faizini Çexiyaya, 1,9 faizini Tunisə, 1,5 faizini Vyetnama, 11,3 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (40,4 faiz), Türkiyəyə (19,8 faiz), İsveçrəyə (10,4 faiz), Gürcüstana (8,1 faiz), Çinə (3,1 faiz), Ukraynaya (2,4 faiz), İtaliyaya (2,0 faiz), Qazaxıstana (1,6 faiz), İrana (1,2 faiz), Türkmənistana (1,0 faiz), Belarusa (0,9 faiz), ABŞ-a (0,9 faiz) göndərilmiş malların payı üstün olmuşdur.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,4 faizi Rusiya, 14,7 faizi Türkiyə, 13,2 faizi Çin, 7,9 faizi ABŞ, 5,1 faizi Almaniya, hər biri 4,2 faiz olmaqla İtaliya və Ukrayna, 3,0 faizi Birləşmiş Krallıq, 2,7 faizi İran, 1,9 faizi Yaponiya, hər biri 1,8 faiz olmaqla Koreya və Fransa, 21,1 faizi digər ölkələrlə aparılmış əməliyyatların payına düşmüşdür.

## Elektron ticarət dövriyyəsi 2,2 dəfə artıb




Cari ilin yanvar-avqust aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 24,6 milyard manatlıq, o cümlədən 13,3 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 11,3 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 1,8, o cümlədən qeyri-ərzaq malları üzrə 6,9 faiz azalmış, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 3,3 faiz artmışdır. Elektron ticarət dövriyyəsi ötən ilin yanvar-avqust ayları ilə müqayisədə 2,2 dəfə çox olmuşdur.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 48,9 faizi ərzaq məhsullarının, 5,2 faizi içkilər və tütün məmulatlarının, 14,6 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,5 faizi elektrik malları və mebellərin, 5,4 faizi avtomobil benzini və dizel yanacağının, 1,8 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,8 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

8 ayda istehlak məhsullarının dəyər ifadəsində 22,8 faizi ticarət müəssisələri, 50,8 faizi fərdi sahibkarlar tərəfindən, 26,4 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2019-cu ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 8,9, fərdi sahibkarlar üzrə 1,1 faiz artmış, bazar və yarmarkalarda isə 13,7 faiz azalmışdır.

Bu dövrdə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 308,1 manat və ya 2019-cu ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 2,5 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 166,7 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 141,4 manatlıq qeyri-ərzaq malları almışdır.



## Keçidlər də yollar kimi insanların rahatlığına xidmət edir

Əvvəli 1-ci səh.

Bu ilin əvvəlindən Prezident İlham Əliyevin tikintisi sona çatmış bir sıra keçidlərin açılışında iştirak etməsi sözügedən infrastruktur obyektlərinin əhəmiyyətini bir daha vurğulayır.

Xatırladaq ki, Prezidenti İlham Əliyev bu il aprelin 3-də Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində tikilən yerüstü piyada keçidinin açılışında da iştirak etmişdir. Tədbirdə dövlət başçısı demişdir: “Onlarla körpü, yol qovşaqları, yeni yolların çəkilişi, yolların genişləndirilməsi, yol çəkilişində nəzərdə tutulan standartlar. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanda yol təsərrüfatının keyfiyyətini ən yüksək qiymətlərlə fərqləndirir və yolların keyfiyyətinə görə biz dünyada 30-cu yerlərdəyik. Ancaq əhali artır, fəallıq artır. Baxmayaraq ki, indi koronavirus dövründə iqtisadi fəallıq aşağı düşüb, amma bu, müvəqqəti məsələdir. Bu xəstəliyə qarşı mübarizə yekunlaşandan sonra iqtisadi fəallıq bərpa ediləcək”.

Paytaxtın nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində icra olunan kompleks tədbirlərin bir hissəsi kimi həmin yerüstü piyada keçidi mühüm əhəmiyyət daşıyır. Çünki bu ərazi həm nəqliyyat vasitələrinin, həm də piyadaların çox olduğu yerdir. Yerüstü piyada keçidinin inşası piyadaların təhlükəsizliyini təmin etməklə yanaşı, ərazidə yaranan tıxacların qarşısını da alır və nəticədə avtomobillərin hərəkətinin intensivliyi təmin olunur.

Keçidin uzunluğu 130, eni 3 metrdir.

İyun ayının 22-də isə Prezident İlham Əliyev paytaxtın Xətai rayonunun Neapol küçəsindəki yeni yerüstü piyada keçidinin açılışında iştirak etmişdir.

Bu keçid Heydər Əliyev Parkının yaxınlığında yerləşir. 2000-ci ildə salınan və açılışında Ulu Öndərin şəxsən iştirak etdiyi bu park həmin vaxtdan rayon sakinlərinin ən sevimli istirahət məkanına çevrilib.

Buradakı yeni yerüstü keçid də yüksək zövq, müasir texnologiyalar əsasında inşa olunub və tam fərqli görkəmə malikdir.

Qeyd edək ki, ölkənin digər şəhər və rayonlarında aparılan tikinti, abadlıq-quruculuq işləri arasında keçidlərin və körpülərin tikintisi və təmiri də əsas prioritetlərdəndir. Məsələn, son vaxtlar Gəncəçay üzərində eyni vaxtda beş körpünün bərpası başa çatdırılıb. Bu il iyunun 24-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərinə səfər çərşivəsində həmin körpülərdə görülmüş işlərlə tanış olmuşlar.

Qəzalı vəziyyətdə olan bu körpülərin bərpası üçün Prezidentin Ehtiyat Fondundan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon manat vəsait ayrılmışdır. Həmin vəsait hesabına körpülərdə təmir-bərpa işləri optimal müddətdə başa çatdırılmışdır. Beləliklə, həm piyadalar, həm də avtomobillər üçün körpülər üzərindən təhlükəsiz hərəkət etmək imkanı yaradılmışdır.

İnsanların rahatlığına və təhlükəsizliyinə xidmət edən yeni keçidlərin tikintisi davam edir. Bu günlərdə Prezidentin həmin qəbildən olan daha bir obyektin açılışında iştirak etməsi deyilənlərin əyani təsdiqidir.

Mərdəkan-Zuğulba avtomobil yolundakı yeni yerüstü piyada keçidinə böyük ehtiyac var idi. Bu səbəbdən də keçid tikilərkən ətrafda yaşayış massivinin, o cümlədən məktəbin olması, insanların daha çox yolun bu hissəsindən istifadə etməsi və digər amillər nəzərə alınıb.

Rahat hərəkət üçün keçiddə beynəlxalq standartlar nəzərə alınmaqla panduslar quraşdırılıb. Keçidin ümumi uzunluğu panduslarla birlikdə 180 metrdir, onun mükəmməl konstruksiyası və bənzərsiz görkəmi var.

Bir sözlə, Azərbaycan və İtaliya mütəxəssislərinin birgə əməyinin bəhrəsi olan bu yeni keçid paytaxtın sakinlərinə və qonaqlarına dəyərli hədiyyədir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bəyan edib ki, koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, sosial və infrastruktur layihələrinin icrası təxirə salınmayacaq. Bütün dünyanı pandemiyanın sınağa çəkdiyi bu çətin dövrdə ölkəmizdə bir-birinin ardınca yeni layihələrin gerçəkləşməsi bir daha göstərir ki, Prezidentimiz hər zaman olduğu kimi, yenə də sözünə və vədinə sadiqdir.

*Flora SADIQLI,*
*“Azərbaycan”*

## Bu il pensiya hüququ yaranmayan 23 min şəxsə yaşa görə müavinət təyin olunub

**İlin əvvəlindən yaşa görə müavinət yaşının pensiya yaşı ilə eyniləşdirilməsi yaşlı əhalinin sosial təminat sistemi ilə əhatə olunmaq imkanlarını və bu sistemin əhatə dairəsini daha da artırıb.**

Bu ilin əvvəlinədək və cari ilin ötən dövründə pensiya yaşına çatan, lakin pensiya hüququ yaranmayan 23 min şəxsə yaşa görə müavinət təyin olunub.

Beləliklə, həmin vətəndaşlar əvvəlki qanunvericilikdə nəzərdə tutulan yaş hədlərinə çatmalarını gözləmədən, daha erkən dövrdə yaşa görə müavinət hüququ qazanıblar.

Ümumilikdə, yaşa görə müavinətlə təmin olunanların sayı hazırda 100 minə yaxındır.

## Beynəlxalq Startap Yarışmasında Azərbaycanı təmsil edəcək startap məlumdur

**Dünyanın 80 ölkəsindən startapların iştirak edəcəyi İslam İnkişaf Bankının Beynəlxalq Startap Yarışmasında Azərbaycanı təmsil edəcək startap məlum olub.**




Onlayn keçirilən tədbirdə yarışmanın ölkə üzrə milli seçim mərhələsinə qatılmış startaplar münsiflər heyətinə öz layihələrini təqdim ediblər. Münsiflər heyəti yarışmanın Azərbaycan üzrə rəsmi tərəfdaşı olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), İslam İnkişaf Bankının və İslam İnkişaf Bankı Qrupunun İllik İnvestisiya Toplantısının təşkilat komitəsinin üzvlərindən ibarət olub.

Münsiflər Heyətinin qərarı ilə “Mina - Made in Azerbaijan” startap komandasının yuyucu vasitələrdən istifadə etmədən əşyaları təmizləyən elektron cihazı - “W-ball” layihəsi Azərbaycan üzrə milli turun qalibi seçilib.

Qalib startap oktyabrın 29-da Dubayda keçiriləcək Beynəlxalq Startap Yarışmasında Azərbaycanı təmsil etmək hüququ qazanıb. Yarışın bilavasitə iştirak formatında keçiriləcəyi təqdirdə milli təmsilçinin bütün xərcləri İslam İnkişaf Bankı tərəfindən qarşılanacaq. Beynəlxalq Startap Yarışmasında ümumilikdə 5 qalib seçiləcək və onların hər birinə 10 min ABŞ dolları məbləğində mükafat veriləcək. Həmçinin İslam İnkişaf Bankı tərəfindən qalib startapların gələcək inkişafına maliyyə dəstəyi göstərilə bilər.

Məlumat üçün bildirək ki, Beynəlxalq Startap Yarışmasının Azərbaycan üzrə milli seçim mərhələsinə sentyabrın 1-də start verilib. Milli seçim turunda mobil tətbiqlər, ağıllı cihazlar, onlayn xidmətlər kimi sahələrdə fəaliyyət göstərən 15 startap iştirak edib.

## İxracın təşviqi sahibkarlar üçün əlverişli mexanizmdir

**Qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadi potensialının gücləndirilməsi üçün mühüm amillərdəndir. Son illər ərzində aparılan islahatlar, tətbiq edilən stimullaşdırıcı mexanizmlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına əlavə imkanlar yaradıb.**

Bu sahədə təbiq edilən mexanizmlərdən biri də ixracın təşviqi mexanizmidir. İqtisadiyyat Nazirliyinin yaydığı məlumatda bildirilir ki, “Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1 mart 2016-cı il tarixli fərmanına uyğun olaraq, ölkə ərazisində istehsal edilən və istehsal prosesində istifadə olunan yerli komponentlərin, qeyri-neft məhsullarının dəyərindən, habelə ixrac olunan məhsulların növündən asılı olaraq, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilir.

İxrac təşviqi məhsulun ixrac gömrük bəyannaməsində göstərilmiş gömrük dəyərinin bir hissəsinin dövlət büdcəsinin vəsaiti hesabına ixracatçıya ödənilməsi mexanizmidir. İxrac təşviqi geri qaytarılmaq öhdəliyi olmadan Azərbaycanın gömrük ərazisindən çıxarılmaqla faktiki ixrac edilən bir sıra qeyri-neft məhsullarına şamil olunur.

Nazirlər Kabinetinin müvafiq qərarı ilə ixrac təşviqinin ödənilməsi qaydası, baza məbləğinə tətbiq olunan əmsallar və ixrac təşviqi aid olan qeyri-neft məhsullarının siyahısı təsdiq edilib. Həmin siyahıya əsasən, quş yumurtası, təbii bal, qabığı təmizlənmiş, həmçinin emal olunmuş fındıq, xurma, nar, zeytun yağı, unlu qənnadı məmulatları, qurudulmuş meyvələr, konservləşdirilmiş meyvə və tərəvəzlər, onlardan şirələr, alkoqollu və alkoqolsuz içkilər, Naftalan mazı, təbii dəridən geyim əşyaları, ayaqqabı və digər məmulatlar, əllə toxunmuş xalçalar, ipək parçalar, pambıq ipliyindən geyim əşyaları, ləvazimatları və digər hazır toxuculuq məmulatları ixrac təşviqi şamil olunan mallara aid edilir. İxrac təşviqinin baza məbləği ixrac olunmuş məhsulların dəyərinin 3 faizini təşkil edir və ona 1-2 arasında dəyişən əmsallar tətbiq edilməklə ödənilir. Yəni ixrac olunmuş malın gömrük dəyərinin 3-6 faizi ixracatçıya ödənilir. Məsələn, əgər ixracatçı 100 min manat ekvivalentində meyvə-tərəvəz məhsulu ixrac edibsə, ona 3 min manat, eyni məbləğdə təbii üzüm şirəsi ixrac edildiyi halda isə, 6 min manat vəsait ödənilir.

Qeyd edək ki, bu ilin 8 ayı ərzində qeyri-neft ixracına görə ixrac təşviqinin ödənilməsi məqsədilə sahibkarlardan daxil olan 634 müraciətə baxılıb və onlardan 627-sinə məktub-sərəncam verilib. Bu dövr ərzində ixrac olunmuş məhsulların dəyəri 111 mln. dollar, ixrac təşviqinin məbləği isə 6,3 mln. manat təşkil edib. Bu dövrdə ixrac təşviqi mexanizmindən 80 sahibkarlıq subyekti yararlanıb və dünyanın 20 ölkəsinə ixrac təşviqi şamil edilən Azərbaycan istehsalı olan qeyri-neft məhsulları ixrac edilib.

İxracına görə ixrac təşviqi ödənilmiş məhsullar arasında qabığı təmizlənmiş meşə fındığı, təzə xurma və nar, şərablar və digər spirtli içkilər, konserv məhsulları, şirələr, mürəbbələr, souslar, pambıq ipliyindən hazırlanan məmulatlar üstünlük təşkil edib.

Məlumat üçün bildirək ki, 2016-cı ilin martından tətbiq edilən ixrac təşviqinin ödənilməsi mexanizmi çərçivəsində 2947 müraciət daxil olub və aparılan araşdırmalardan sonra 2883 məktub-sərəncam verilib. Bu dövr ərzində 365 mln. ABŞ dolları dəyərində ixrac olunmuş məhsullara görə sahibkarlıq subyektlərinə 23,2 mln. manatdan çox ixrac təşviqi ödənilib. İndiyədək ixrac təşviqi mexanizmindən yararlanan sahibkarlar 145 sahibkar öz məhsullarını Almaniya, ABŞ, Böyük Britaniya, İsrail, İsveç, İtaliya, Kanada, Küveyt, Avstraliya, Belçika, BƏƏ, Cənubi Koreya, Belarus, Çexiya, Çin, Fransa, Yaponiya və digər ölkələrə ixrac ediblər.

İxrac təşviqi mexanizmi iqtisadiyyatının diversifikasiyasının davam etdirilməsi, yaradılmış ixrac potensialından daha səmərəli istifadə olunması, ixracatçıların məhsullarını beynəlxalq bazarda daha rəqabətqabiliyyətli qiymətlərlə təklif etmək imkanı yaradır. Hazırda ixrac təşviqinin ödənilməsi prosesinin elektronlaşdırılaraq müvafiq məlumat bazalarına inteqrasiya olunması hesabına ixracatçılar üçün daha rahat, həmçinin ödənilmiş vəsaitlərin səmərəli istifadəsinin təmin olunması baxımından daha səmərəli mexanizm kimi təkmilləşdirilməsi üzərində işlər aparılır.

*B.İMANQULİYEV,*
*“Azərbaycan”*



## Qədim tarixə malik kəndlərə yeni yol çəkilir

**Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində yeniləşən və müasirləşən yol infrastrukturu sənaye, kənd təsərrüfatı və turizmin inkişafını sürətləndirir.**

Bu baxımdan dövlət başçısının sərəncamına əsasən, 4 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən respublika əhəmiyyətli Muğanlı-İsmayıllı yolunun 17-ci km-dən başlanğıcını götürən Basqal-Qıçatan-Tağlabiyan-Kəlfərəc-Zeyvə-Kürdüvan-Xankəndi-Mücü-Sərsurə-Kələzeyvə-Sulut avtomobil yolunun yenidən qurulmasının əhəmiyyəti böyükdür.

“Azəryolelmitədqiqatlayihə” İnstitutu tərəfindən hazırlanan layihə əsasında salınan yeni yol 4 istiqamət üzrə inşa edilir. Bu, Qıçatan kəndi, Tağlabiyan-Kəlfərəc, Zeyvə-Kürdüvan-Xankəndi-Mücü və Sərsurə-Kələzeyvə-Sulut kəndləri istiqamətləridir. Əvvəl bu istiqamətdə yolların torpaq əsaslı və çınqıl örtüklü olması gediş-gəliş üçün problemlər yaradırdı. Xüsusən payız-qış mövsümündə gediş-gəliş çətinləşirdi.

Vətəndaşların rahat və təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə agentlik tərəfindən tikinti ərazilərinə kifayət qədər canlı qüvvə və texnika cəlb olunmaqla yenidənqurma işlərinin aparılmasına başlanılıb. Yenidənqurma zamanı torpaq və çınqıl örtüklü olan yollar 5-ci texniki dərəcədən 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilir. Aparılan işlər bütün hərəkət iştirakçılarının normal və təhlükəsiz hərəkətinə hesablanıb. Belə ki, yollar boyu yararsız qrunt qazılıb kənarlaşdırılır, əks-dolğu və genişləndirmə işləri aparılmaqla yeni yol yatağı inşa olunur, zəruri yerlərdə torpaq yatağı layihə hündürlüyünə qaldırılır. Torpaq işlərinə paralel olaraq yol boyu yaşayan vətəndaşların pay torpaqlarında becərdikləri kənd təsərrüfatı məhsullarının suvarılması və məişətdə istifadəsi üçün yolun altından suların ötürülməsi məqsədilə mövcud dəmir-beton borular bərpa olunur, zəruri olan yerlərdə müxtəlif diametrli yeni boruların tikintisi işləri aparılır. Ümumilikdə yol boyu müxtəlif diametrlərə malik dəmir-beton dairəvi suötürücü borular quraşdırılması və izolyasiyası, həmçinin körpülərin təmiri layihə üzrə həyata keçirilir.

Torpaq işlərinin ardınca yol əsasının inşası, çiyin hissələrin bərkidilməsi və asfalt-beton örtüyünün döşənməsi işləri aparılacaq, avtobus dayanacaqları inşa ediləcək. Layihənin sonuncu mərhələsində isə hərəkətin normal təşkili üçün yol nişanları, məlumatverici lövhələr quraşdırılacaq, üfiqi nişanlanma xətləri çəkiləcək. Bununla da yeni yol müasir görkəmdə vətəndaşların istifadəsinə veriləcək.

Yolun yenidən qurulması nəinki gediş-gəlişi rahatlaşdıracaq, həm də adları çəkilən tarixi və füsunkar kəndlərimizin inkişafına müsbət təsir göstərəcək. Ümumiyyətlə, sözügedən avtomobil yolunun inşası ilə Böyük Qafqazın cənub ətəklərində, səfalı İsmayıllı ərazisində yerləşən, Azərbaycanın hələ XII əsr xəritələrində adıçəkilən, ilk insan məskənlərindən biri sayılan Sulut, qədim kəndlərimizdən sayılan Basqal, Qıçatan, səfalı bulaqları ilə tanınan Sərsurə, tarixi abidələri, türbələri, ibadətgahları ilə məşhur olan Kələzeyvə və digər kəndlərdə turizmin inkişafını sürətləndirəcək.

*“Azərbaycan”*

## “Sahibkarların I Beynəlxalq Onlayn Forumu - Bakı 2020” keçiriləcək

**Sentyabrın 22-23-də “Sahibkarların I Beynəlxalq Onlayn Forumu - Bakı 2020” keçiriləcək.**

İlk dəfə olaraq təşkil olunacaq və İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə reallaşdırılacaq onlayn forumun məqsədi koronavirus (COVID-19) pandemiyası şəraitində və postpandemiya dövründə sahibkarların motivasiyası və beynəlxalq təcrübənin öyrənilməsidir.

Sahibkar düşüncə tərzinin təşviqi, xüsusilə gənclər və qadınlar arasında sahibkarlıq fəaliyyətinə marağın artırılması, sosial sahibkarlıq sahəsində fəaliyyət göstərən və biznesə yeni başlayan gənclərin həvəsləndirilmsi, biznesin pandemiya dövründə qarşılaşdıqları çətinliklərin müzakirə olunması forumun başlıca hədəfləri sırasındadır. Onlayn forum çərçivəsində pandemiya şəraitində fəaliyyətini davam etdirən sahibkarların uğur hekayələri paylaşılacaq, xarici mütəxəssislər vasitəsilə qabaqcıl təcrübə öyrəniləcəkdir.

Onlayn foruma Türkiyə, Almaniya, Finlandiya, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Rusiya, Pakistan, İspaniya və s. kimi ölkələrdən iştirakçı və spiker qismində iş adamlarının qatılacağı gözlənilir.

“SA Consulting” MMC-nin təşkilatçılığı ilə keçiriləcək “Sahibkarların I Beynəlxalq Onlayn Forumu - Bakı 2020”nin tərəfdaşları “Odlar Yurdu” Gənclər İctimai Birliyi, “SAT Group”, Sosial Biznes Gənclər Mərkəzi, “Networking.az” biznes klubu, “Majlis Business Network” və “Avrasya Ekonomik İlişkiler Derneği”dir.

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC tabeli poçt müəssisələrinin 4 ədəd zirehli avtonəqliyyat vasitələrinin alınması üzrə

### *tender elan edir*

LOT-1: Zirehli avtonəqliyyat vasitəsi tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi, LOT-1 üzrə 300 AZN məbləğində pul vəsaitini “ASAN Ödəniş” sistemi ilə bank hesabına köçürməlidir:

**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: “Azərpoçt” MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **02 oktyabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **12 oktyabr 2020-ci il saat 18:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **13 oktyabr 2020-ci il saat 11:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Oktay İsmayılov - Tender komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## Qobustan Rayon İcra Hakimiyyəti Əlil və şəhid ailələri üçün inşa edilmiş 8 və 16 mənzilli binaların əsaslı təmirinin satın alınması məqsədilə

### *açıq tenderə dəvət edir*

**LOT:** 1- Əlil və şəhid ailələri üçün inşa edilmiş 8 və 16 mənzilli binaların əsaslı təmirinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərlərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

**Məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar:**

**Əlaqələndirici şəxs:** Fazil Müslümov, telefon: (020) 245-27-54
**Ünvan:** Qobustan şəhəri, Heydər Əliyev prospekti 1.

Tenderdə iştirak etmək istəyənlər dövlət satınalmalarının vahidi internet Portalında ”ASAN ödəniş” sisteminə keçid edərək iştirak haqqını aşağıda göstərilən hesaba nağdsız ödəniş etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu elektron portal üzərindən əldə edə bilərlər.

İştirak haqqı:
LOT 1: 200 manat

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

14 saylı Regional Xəzinədarlıq İdarəsi
**B1.** Benefisar (alan bank)
**Adı:** Dövlət Xəzinədarlığı Agentliyi
**Kodu:** 210005
**VÖEN:** 1401555071
**Müxbir hesab:** AZ41NABZ01360100000000003944
**SWIFT. Bik:** CTREAZ22
**B2.** Alan müştəri
**Adı:** Qobustan YXO
**Hesab:** AZ08CTRE00000000000002112831
**VÖEN:** 4800016471

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (arayışlar Tender komissiyasının adına olmalıdır);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti (Forma 1, Forma 2).*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının gördüyü analoji işlər haqqında məlumat;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflər açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *digər sənədlər, o cümlədən maddi texniki bazası, maşın, mexanizm və digər texnikanın mövcudluğu.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. Xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır.

Tender proseduru ”Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 14.10.2020-ci il saat 09:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini isə 23.10.2020-ci il saat 09:00-dək Portal vasitəsilə Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdum olunan təkliflər qəbul olunmayacaqdır.

Tender təklifləri 23.10.2020-ci il saat 16:00-da elektron Portal vasitəsilə açılacaqdır.

Qeyd: Tenderdə iştirak tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

GPON (Giqabit İmkanlı Passiv Optik Şəbəkə) texnologiyasının tətbiqi ilə mənzillərin telefonlaşdırılması, LTE (Simsiz Telefon Rabitəsi) tətbiqi ilə baza stansiyalarının quraşdırılması və şəbəkənin genişləndirilməsi məqsədi ilə iş və xidmətlərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanmış və möhürlənmiş ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2000 (iki min) manat (ƏDV daxil) iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 19 oktyabr 2020-ci il saat 17:00-dək aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **27 oktyabr 2020-ci il saat 17:00-a** qədər “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **28 oktyabr 2020-ci il saat 11:00-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

LOT 1 - “BTR” MMC-nin rabitə xidməti mərkəzlərində 2020-ci il ərzində təmir-tikinti və quraşdırma işlərində istifadə olunacaq mal-materialların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT 1 üzrə 250 (iki yüz əlli) manat (ƏDV daxil) iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına “ASAN Ödəniş” Portalı vasiətsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: eş9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 05 oktyabr 2020-ci il saat 11:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **13 oktyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **14 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada* ***www.etender.gov.az*** *dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 15.09.2020-ci il saat 22:00-dan etibarən 16.09.2020-cı il səhər saatlarınadək və 17.09.2020-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 28 iyul 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınmasına dair tender üzrə Tender komissiyasının 07 sentyabr 2020-ci il tarixli qərarına əsasən, “Yanğından Qorunma Sistemləri” MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# Xətai rayonunda təbiətə ciddi ziyan vurmaqda təqsirləndirilən tikinti şirkəti ilə bağlı cinayət işi başlanıb

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpası və təbii ehtiyatlardan səmərəli istifadə olunması istiqamətində mühüm işlər görülür.

Lakin bəzi hallarda ayrı-ayrı fiziki və hüquqi şəxslər tərəfindən ətraf mühitin mühafizəsi qaydalarının pozulması halları müşahidə olunur və prokurorluq orqanları tərəfindən belə hallara qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, paytaxtın Xətai rayonu ərazisində yerləşən, “Real-Park” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus torpaq sahəsində ağac və kolların məhv edilməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyindən (ETSN) daxil olmuş material üzrə Baş Prokurorluğun Cinayət Təqibindən Kənar İcraatlar İdarəsində araşdırma aparılıb.

Aparılmış araşdırmalarla “Real-Park” MMC tərəfindən yaşayış binasının tikintisi məqsədilə ərazidə təmizlik işləri aparılarkən 29 ədəd ağac və kolun məhv edilməsi nəticəsində təbiətə 14 min 880 manat məbləğində ziyanın dəyməsinə əsaslı şübhələr müəyyən olunub.

Bundan başqa, 2020-ci il 25 avqust tarixli aktdan, 2020-ci il 3 sentyabr tarixli baxış protokolundan və ETSN-in tabeliyində olan “Geodeziya və Kartoqrafiya” MMC-dən əldə edilmiş 2019-cu və əvvəlki illərə aid peyk görüntülərindən ərazinin mərkəz hissəsində də yaşıllıqların məhv edilməsi və həmin yerin tikinti altına düşməsi aşkarlansa da, ETSN-in tabeliyində olan Dövlət Ekspertiza İdarəsi tərəfindən verilmiş rəyə ərazinin bir hissəsində məhəllədaxili yaşıllıqların mövcud olması, nəzərdə tutulmuş tikinti işlərinin ərazinin yaşıllıqlardan azad hissəsində həyata keçiriləcəyi barədə bilə-bilə yalan məlumatların daxil edilməsinə şübhələr üçün əsaslar müəyyənləşdirilib.

Faktla bağlı Baş Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 259.2.3-cü (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə qanunsuz ağac kəsmə), 259.2.4-cü (qanunsuz ağac kəsmə, külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb və istintaqın aparılması Xətai Rayon Prokurorluğuna tapşırılıb.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunmaları, ətraf mühitə vurulmuş maddi ziyanın məbləğinin müəyyənləşdirilərək ödənilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər davam etdirilir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7559
Sifariş 2111
Qiyməti 40 qəpik